Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# HİDAYƏT

## (*Orucov Hidayət Xuduş oğlu*)

**Biblioqrafiya**

**Bakı - 2014**

KBT Я19:Ш5(2=Аз)
UDK 016:821.512.162

**Tərtibçi:** **Gülbəniz Səfərəliyeva,**
*Əməkdar mədəniyyət işçisi*

**İxtisas redaktoru və ön sözün müəllifi:** **Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Səfalı Nəzərli**

**Hidayət (Orucov Hidayət Xuduş oğlu):** biblioqrafiya /tərt. G.Səfərəliyeva; ixtisas red. və ön söz. müəl. K.Tahirov; red. S.Nəzərli; Azərbaycan Milli Kitabxanası.- Əlavələrlə II nəşri.- Bakı, 2014.- 368 səh.

Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından hazırladığı növbəti biblioqrafiyada müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, ictimai-siyasi xadim Hidayətin əsərləri, həyat və yaradıcılığı, siyasi fəaliyyəti haqqında zəngin məlumat toplanmışdır. Vəsaitdə ədibin həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri də öz əksini tapmışdır.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

**ISBN 978-9952-460-39-1**

**© Azərbaycan Milli Kitabxanası, 2014**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# ГИДАЯТ

## (*Оруджев Гидаят Худуш оглу*)

**Библиография**

**Баку - 2014**

**Составитель:** **Гюльбениз Сафаралиева,**
*Заслуженный работник культуры*

**Редактор по специальности и автор предисловия:** **Керим Тахиров,**
*профессор,*
*Заслуженный работник культуры*

**Редактор:** **Сафалы Назарли**

**Гидаят (Оруджев Гидаят Худуш оглу):** библиография /сост. Г.Сафаралиева; ред. по спец. и автор предис. К.Тахиров; ред. С.Назарли; Азербайджанская Национальная Библиотека.- 2-е изд. с доп.- Баку, 2014.- 368 стр.

В очередном библиографическом указателе из серии «Жизнь выдающихся людей», изданным Азербайджанской Национальной Библиотекой собраны материалы о жизни, творчестве и общественной деятельности известного представителя современной азербайджанской литературы – Гидаята. В пособии приводятся основные даты жизни и творчества писателя, а также высказывания о нем выдающихся деятелей

Книга предназначена для ученых-литературоведов, исследователей, библиотекарей-библиографов и широкого круга читателей.

**©Азербайджанская Национальная Библиотека, 2014**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Remarkable people of Azerbaijan*

# HIDAYAT

## (Orujov Hidayat Khudush oghlu)

***Bibliography***

**Baku – 2014**


**Compiled by:** **G.Safaraliyeva,**
*Honored art worker*

**The professional editor and author of the foreword:** **K.Tahirov,**
*professor,*
*Honored art worker*

**The editor:** **S.Nazarli**

**The translator:** **P.R.Huseynova**



**Hidayat (Orujov Hidayat Khudush oghlu):** bibliography /comp. G.Safaraliyeva; the prof. ed. and autor of the foreword K.Tahirov; ed. S.Nazarli; Azerbaijan National Library.- 2nd publication with additions.- Baku, 2014.- 368 page.


Prepared by the Azerbaijan National Library bibliography series "Outstanding personalities of Azerbaijan" to host workshop devoted to Hidayat, a socio-political leader, famous personality contains materials about life, creativity and political works.

The book is intended for literary scholar, specialists, researchers, librarians and the general public.


**© Azerbaijan National Library, 2014**

## Tərtibçidən

Azərbaycan Milli Kitabxanası müasir Azərbaycan ədəbiyyatında öz dəsti-xəttilə seçilən görkəmli şair, dramaturq, nasir, publisist və dövlət xadimi Hidayətin (Orucov Hidayət Xuduş oğlu) ədəbi və ictimai fəaliyyətini tam şəkildə əks etdirən biblioqrafik göstərici işləyib hazırlamışdır.

Hidayət haqqında ilk biblioqrafiya 2001-ci ildə nəşr edilmişdir "Hidayət (Orucov Hidayət Xuduş oğlu): biblioqrafik göstərici" /tərtibçi-müəl. B.A.Ələsgərov; M.F.Axundov ad. Azərbaycan Dövlət Kitabxanası.- Bakı: Nağıl evi, 2001). Oxuculara təqdim edilən yeni biblioqrafik göstərici tamamilə təkmilləşdirilmiş, əlavələr edilmişdir. Göstəricidə Hidayətin Azərbaycan və dünya xalqlarının dillərində çap olunmuş əsərləri – poeziyası, dramaturgiyası, nəsri, publisistikası, müxtəlif simpozium, toplantı və konfranslarda çıxışları, tərtib və tərcümə etdiyi, redaktoru olduğu, ön söz yazdığı kitablar, haqqında nəşr edilmiş kitablar və dövri mətbuat materialları toplanmışdır.

Vəsaitdə materialların üç dildə (Azərbaycan, rus və ingilis) verilməsində əsas məqsəd Hidayətin həyatı və fəaliyyəti haqqında bəzi məlumatları xarici ölkə oxucularına da çatdırmaqdır.

Göstəricidə öz əksini tapan bölmələr və yarımbölmələrdə materiallar xronoloji qaydada, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

Biblioqrafik vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda köməkçi göstəricilər tərtib olunmuşdur.

Kitab ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və iradlarını Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57;

**E-mail:** contact@anl.az; URL: www.anl.az





## От составителя

Азербайджанская Национальная Библиотека в полном объеме разработала и составила библиографический указатель известного поэта, драматурга, прозаика, публициста и государственного деятеля, отличавшегося своим почерком в современной национальной литературе Азербайджана – Гидаята (Оруджева Гидаята Худуш оглы).

Первый указатель о Гидаяте был издан в 2001-м году (Гидаят (Оруджев Гидаят Худуш оглы): библиографический указатель /автор-сост. Б.А.Алескеров; Азербайджанская Национальная Библиотека им. М.Ф.Ахундова.- Баку: Nağıl evi, 2001.) Новый библиографический указатель заново разработан, усовершенствован, а также пополнен новыми дополнениями. В указателе собраны, изданные на разных языках народов мира произведения – в жанре поэзии, публицистики, драматургии, а также выступления на различных симпозиумах, форумах, конференциях, книги составленные и отредактированные им, а также опубликованные о нем книги и материалы в периодической печати.

Главная цель указателя, публикующегося на трёх языках (азербайджанском, русском, английском) лаконично довести до сведения иностранных специалистов некоторые этапы жизни и деятельности Гидаята.

В библиографии материалы сгруппированы по хронологии, а внутри – в алфавитном порядке. С целью облегчения пользования составлен вспомогательный аппарат.

Книга предназначена для ученых-литературоведов, исследователей, библиотекарей-библиографов и для широкого круга читателей.

Заранее выражая глубокую признательность специалистам и читателям за отзывы и рецензии к указателю, просим их присылать свои предложения и пожелания в Национальную Библиотеку.

**Адрес:** AZ-1000, город Баку, улица Хагани, 57;

**E-mail:** contact@anl.az; URL: www.anl.az

## From the compiler

Azerbaijan National Library prepared a bibliographic – information guide about the literary and social life of Hidayat (Orucov Hidayat Khudush), the prominent poet, writer, prosaist, playwright and the statesman. He is distinguished by his own writing in Modern Azerbaijani Literature.

The first bibliography about Hidayat was published in 2001 (Orucov Hidayat Khudush: bibliographic guide /compiler-prof. B.A.Alasgarov; Azerbaijan National Library named after M.F.Akhundov.- Baku: Nağıl evi, 2001). This guide was completely updated and extended. The guide includes all his works published both in Azerbaijani and other languages – his poetry, plays, prose, publicity, presentations in various symposiums, meetings and conferences, the books that he has compiled, translated, edited or written preface and the information, articles published about him.

The purpose of its being in 3 languages (Azerbaijani, Russian, English) is to deliver information about his life and creativity to foreign readers too.

Materials in the sections and subsections have been classifed in chronological order, inside in alphabetical order.

In order to facilitate the use of the guide, additional indexes have been compiled.

This guide refers to literary critics, researchers, librarian-bibliographers and mass reader groups. .

Please send your suggestions and feedbacks to the National Library. We thank in advance.

**Adress:** AZ-1000, Baku., Khagani st. 57;

**E-mail:** contact@anl.az; URL: www.anl.az





## Həyatın, zamanın fövqündə gedən sənətkar

Görkəmli şair, yazıçı-publisist, dramaturq, ictimai-siyasi xadim Hidayət Orucov çoxşaxəli yaradıcılığı və mükəmməl, fərqli poetik xüsusiyyətləri ilə Azərbaycan ədəbiyyatında, ümumilikdə Azərbaycan ictimaiyyətində özünəməxsus yerə malik bir şəxsiyyətdir.

O, ədəbi mühitdə Hidayət adı ilə tanınan, öz ürəyinin səsini dinləyən, onu dərindən narahat edən fikirləri, yaşanmış duyğuları qələmə alan şairdir. Hələ gənc yaşlarından yazdığı şeirlərində səmimiyyət, insani hisslər, vətəndaşlıq qüruru, qurub-yaradan insanların zəhməti, eləcə də azadlıq, istiqlaliyyət uğrunda vuruşan xalqların mübarizəsi, onların arzu və istəkləri öz əksini tapmışdır. Hidayətin “Nəyim var” adlı ilk şeiri 19 yaşında ikən – 1963-cü ildə “Ədəbi Ermənistan” almanaxında çap olunmuşdur. Onun poetik qayəsi insanlıq olan şeirləri oxunaqlı və düşündürücüdür. Şair öz oxucusuna səmimi, xeyirxah və nikbin duyğular aşılayır, bu şeirlərdəki sonsuz həsrətin özündə də mərdlik, dözümlülük, fəlsəfi məna var. “Məni səsləyəndə”, “Bir az gözləyin məni”, “Sabaha çox var”, “Eviniz analı olsun”, “Didərginlər”, “Həsrət”, “Zəngəzur”, “Vətən həsrəti” və s. bu qəbildən olan şeirlərdir.

Hidayətin ilk şeirlər kitabı 1970-ci ildə İrəvanda “Ermənistan” nəşriyyatında çap olunmuş “Məni səsləyəndə” adlanır. Şairin əsasən lirik şeirlərinin toplandığı ilk kitabı onun həyata, həqiqətə vurğunluğundan, zəngin və dolğun poeziya dünyasından xəbər verirdi.

Həyatının İrəvan dövründə şair hər zaman doğma vətəninin, xalqının dilini, ədəbiyyatını, mədəniyyətini təbliğ etmiş, onlarla poeziya, publisistika, nəsr və tərcümə kitablarını nəşr

etmiş, onun səyi ilə həmin dövrdə onlarla yerli şair və yazıçının kitabları İrəvanda Azərbaycan dilində işıq üzü görmüş, pyesləri Azərbaycan teatrları ilə yanaşı, İrəvan teatrında səhnəyə qoyulmuşdur. Ədəbi fəaliyyəti ilə paralel olaraq Hidayət qabaqcıl Azərbaycan ziyalısı kimi mədəni-ictimai fəaliyyətlə məşğul olmuş, 1968-ci ilin iyul ayından C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru təyin olunmuş, fasiləsiz olaraq on altı il müddətində xalqımızın bu qədim sənət məbədinə rəhbərlik etmişdir.

Hələ Qərbi Azərbaycanda fəaliyyət göstərdiyi müddətdə ədəbiyyatın və incəsənətin inkişafındakı xidmətlərinə görə 1978-ci ildə Ermənistan SSR Əməkdar mədəniyyət xadimi fəxri adına layiq görülsə də, vətənpərvər və təəssübkeş ziyalı 1989-cu ildə nankor ermənilərin Azərbaycan xalqına qarşı növbəti təcavüzə başlamalarına etiraz əlaməti olaraq bu fəxri addan imtina etmiş və bununla da torpağına, elinə, vətəninə sədaqətini bir daha sübut etmişdir.

Şair, publisist Hidayət həm də böyük təcrübəsi və səriştəsi olan bir naşirdir. O, 1984-cü ildə Bakıya köçərək "Gənclik" nəşriyyatının baş redaktor müavini, sonra 1992-ci ilə qədər həmin nəşriyyatın baş redaktoru vəzifəsində çalışmışdır. Bu illərdə "Gənclik" nəşriyyatında böyüməkdə olan nəsillər üçün dəyərli kitablar, o cümlədən Azərbaycanın klassik ədəbi irsi, folkloru, tarixi keçmişi sistemli şəkildə nəşr edilib yayılmışdır. Azərbaycanda ictimai-siyasi vəziyyətin mürəkkəb olduğu şəraitdə "Gənclik" nəşriyyatında onun baş redaktorluğu ilə 50 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası"nın nəşr olunması Azərbaycanın kitab mədəniyyəti tarixində mühüm bir hadisə hesab edilirdi. Məhz bu nəşrin həyata keçirilməsindəki xidmətlərinə görə 1991-ci ildə Hidayət Orucova "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə həmçinin, 15 cildlik "Azərbaycan folkloru", 25 cildlik "Macəra və fantastika", 17 cildlik "SSRİ





Xalqları Ədəbiyyatı" kitabxanalarının və bir sıra başqa mühüm seriyaların nəşrinə də həmin illərdə başlanmışdır.

Hidayət şair olmaqla bərabər, dramaturq, nasir və publisist kimi də öz qələmini sınamışdır. Onun poeziyasında olduğu kimi, dramaturgiya, nəsr və publisistikasında da əsas mövzu müasirimiz insan, onun maraqlı və təzadlı daxili dünyası, dünənə, bugünə, sabaha baxışı, estetik idealı və mənəvi-etik dəyərləridir. "Məhəbbət yaşayır hələ", "Məni qınamayın", "Bu dünyanın adamları", "İrəvanda xal qalmadı", "Burdan min atlı keçdi" adlı pyesləri bu gün də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında və başqa teatrlarda dəfələrlə tamaşaya qoyulur və tamaşaçılar tərəfindən sevə-sevə izlənilir.

Tarixən əzəli türk torpaqları olmuş Qərbi Azərbaycanda azərbaycanlı türklərin yaşadığı ictimai-siyasi şərait, ədəbi-mədəni mühit, millətlərarası münasibətlər, din, milli-mədəni dəyərlərimiz, görkəmli azərbaycanlı ictimai və dövlət xadimlərinin həyatı, bütövlükdə soydaşlarımızın on illər boyu məkrli erməni siyasətinə qarşı apardıqları mərd və mətin mübarizə, doğma torpağının, xalqının ağrı-acıları, yaşadığı faciələri, ümumiyyətlə, ictimai-siyasi həyatımızın bir çox hadisə və problemləri onun publisistik əsərlərinin əsas qayəsini təşkil edir. Həm ictimai-siyasi xadim, həm də xalqının dərdinə biganə qalmayan, yazıları ilə düşmənə qarşı mübarizə aparan vətəndaş Hidayətin "Orda – Zəngəzurda mənim ürəyimin məzarı qalıb", "Didərginlərə məktub", "Biçmədim - zəmim qaldı", "Həqiqət kar deyil", "Ağlınızı başınıza yığın" və s. kimi 150-dən çox məqaləsi və publisist qeydləri buna misal ola bilər.

Hidayətin yaradıcılığında ictimai-siyasi məzmunlu əsərlər də geniş yer tutmuş və kitablar şəklində nəşr etdirilərək həm yerli, həm də dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

Azərbaycanın 1988-ci ildən bəri üzləşdiyi ağrılı-acılı günlərin əks-sədası və mürəkkəb tarixi-siyasi proseslərə vətəndaş, ziyalı münasibətini ifadə edən "Sözün vaxtı" (1999), bütün

mənalı həyatını doğma xalqının tərəqqisinə, uğurlu gələcəyinə həsr etmiş, əməlləri, ideyaları və böyük adıyla Azərbaycanı, xalqımızı daim şərəfləndirmiş dünyanın siyasi liderlərindən biri, ümummilli liderimiz Heydər Əliyevin siyasi bioqrafiyasının az işlənmiş, lakin olduqca önəmli bir qolunun - milli siyasət sahəsindəki fəaliyyətinin araşdırılması və şərhinə həsr edilmiş "Heydər Əliyev və Azərbaycanda milli siyasət" (2001, Azərbaycan, türk, ingilis, gürcü, ərəb dillərində), görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyevin uca şəxsiyyəti və bu ucalığa Ermənistanda siyasi-ideoloji dairələrin, erməni ictimaiyyətinin paxıl, qısqanc, düşmən münasibətinin ifşasına həsr edilmiş "İrəvana 7 məktub" (2004, Azərbaycan və rus dillərində), Azərbaycan ədəbiyyatının və filologiya elminin inkişafına önəmli töhfələr bəxş etmiş böyük ədib və görkəmli pedaqoq Mir Cəlal Paşayevə həsr edilmiş "Mir Cəlal dünyasından sətirlər" (2006, Azərbaycan, rus, ingilis və fransız dillərində) və başqa kitablar ədəbiyyat və siyasət meydanında tanınmış bir ziyalı əməyinin gözəl bəhrələridir.

Tərcüməçilik fəaliyyəti görkəmli şair-dramaturq Hidayətin yaradıcılığının həm ayrılmaz, həm də maraqlı istiqamətlərindən biri kimi qiymətləndirilir. Onun qələmindən çıxmış ingilis, rus, island, türk, şotland, gürcü və s. dillərdən dünya klassikasından tərcümə etdiyi poeziya, nəsr, dram nümunələri XX əsrin 80-90-cı illərində ayrı-ayrı kitablar şəklində (H.B. Stounun "Tom dayının daxması" (1991)), antologiyalarda, dövri mətbuatda müntəzəm olaraq nəşr edilmiş və böyük maraq doğurmuşdur. Bu marağı nəzərə alaraq 2012-ci ildə çap edilmiş "Özüm yazmaq istərdim" adlı kitaba şair-dramaturqun bütün dünya ədəbiyyatından tərcümə edilmiş poeziya nümunələri, U.Şekspirin "Xeyirlə qurtaran iş yaxşı olar" əsəri toplanmışdır.

Hidayətin xarici dillərdə nəşr olunmuş "Mən belə yaşayıram", "Nura qovuşaq" (rus dilində), "Ata qəbri" (türk dilində), "Sənsiz", "İntizar" (gürcü dilində), "Dağlar nəğməsi" (özbək dilində), "Sabaha çox var" (Dağıstan xalqlarının dillərində) və





s. kitabları maraqla qarşılanmışdır. Ümumiyyətlə, Hidayətin Azərbaycan və müxtəlif xarici dillərdə 100-ə yaxın kitabı işıq üzü görmüş, tərtib etdiyi, redaktoru olduğu, ön söz və rəy yazdığı, buraxılışına məsul olduğu 50-dən çox kitabı və tərcümələri nəfis tərtibatda çap olunmuş, yüzlərlə ayrı-ayrı kitablarda, dövri mətbuat səhifələrində, məcmuələrdə əsərləri, məqalələri dərc edilmişdir. Əsərləri iyirmidən çox dilə tərcümə edilmişdir.

Ədəbi şəxsiyyət olmaqla yanaşı, bir ictimai-siyasi şəxsiyyət kimi də Hidayət Orucov fenomeni hər zaman illərlə qazandığı ictimai-siyasi təcrübəsi və yüksək idarəçilik qabiliyyəti ilə fərqlənmişdir.

1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri, 1993-2005-ci illərdə Azərbaycan Respublikası milli siyasət məsələləri üzrə Dövlət müşaviri, 2005-2006-cı illərdə Azərbaycan Respublikası Milli azlıqlarla və Dini Qurumlarla İş üzrə Dövlət müşaviri olmuş, 2006-2012-ci illərdə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışmışdır.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 27 dekabr 2012-ci il tarixli Sərəncamı ilə ona Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi verilmiş və Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir.

Azərbaycanın və digər respublikaların ədəbi, ictimai-siyasi həyatındakı fəaliyyətinə, göstərdiyi əvəzsiz xidmətlərə görə 1970-ci ildə "Rəşadətli əməyə görə" medalı, 1978-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 2004-cü ildə "Şöhrət" ordeni, Gürcüstan Respublikasının "Şərəf" ordeni, Dağıstan Respublikasının Fəxri Fərmanı, Çuvaşıstan Respublikasının ali ədəbi mükafatı ilə təltif edilmişdir.

Görkəmli şair və dramaturq, tanınmış nasir və publisist Hidayətin yaradıcılığı da həyatı və ictimai fəaliyyəti kimi xalqımızın milli-mənəvi oyanış müstəvisində daim ön cərgədə

olmuş və geniş ictimaiyyət hər zaman bu əsərlərə dəyər vermiş və onlardan bəhrələnmişdir. Bu baxımdan Azərbaycan Milli Kitabxanası da belə görkəmli şəxslərin geniş ictimaiyyətə təqdim edilməsində, əsərlərinin təbliğində zəngin bilik xəzinəsi kimi hər zaman öz imkanlarını əsirgəməmişdir.

Bu gün Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından geniş ictimaiyyətə təqdim etdiyimiz növbəti mükəmməl biblioqrafik informasiya mənbəyi görkəmli şair-dramaturq, ictimai-siyasi xadim Hidayətin (Orucov Hidayət Xuduş oğlu) biblioqrafiyasıdır. Hidayət haqqında 2001-ci ildə tərtib edilmiş ilk biblioqrafiyadan fərqli olaraq bu vəsaitə yeni əlavələr edilmiş, təkmilləşdirilmiş, ədibin gəncliyindən başlamış bu günə kimi geniş ədəbi, ictimai-siyasi fəaliyyətini işıqlandıran böyük bir dövrü əhatə edir.

Azərbycan, rus və ingilis dillərində materialları əks etdirən bu biblioqrafiyada Hidayətin geniş bir dövrü əhatə edən zəngin poeziyası, dramaturgiyası, nəsri, publisistikası, müxtəlif simpozium, toplantı və konfranslarda çıxışları, tərtib və tərcümə etdiyi, redaktoru olduğu, ön söz yazdığı kitablar, haqqında dərc edilmiş məqalə, rəy və məlumatlar müfəssəl şəkildə əks etdirilmişdir.

Biblioqrafiyada ayrı-ayrı bölmələrdə qruplaşdırılmış "Həyat və fəaliyyətinin əsas tarixləri", görkəmli qələm dostları, ədəbiyyat, mədəniyyət və ictimai-siyasi xadimlərin Hidayət haqqında fikirləri onun geniş ədəbi, mədəni, ictimai-siyasi fəaliyyətlə məşğul olmuş qabaqcıl Azərbaycan ziyalısı kimi təqdim edilməsində çox böyük əhəmiyyətə malikdir.

Kifayət qədər güclü müşahidə qabiliyyətinə malik, öz rəngarəng yaradıcılığı və ədəbi-bədii töhfələri ilə geniş oxucu auditoriyasının həmişə diqqət mərkəzində olmuş Hidayətin xarici dillərdə nəşr edilmiş əsərləri, tərcümələri ilə maraqlanan oxucular da nəzərə alınmış və şairin ingilis, fransız, türk, ərəb, özbək, tat, gürcü, ukrayna, çuvaş dillərində kitablarda və dövri





mətbuatda nəşr edilmiş əsərləri haqqında biblioqrafik informasiyalar xronoloji ardıcıllıqla verilmişdir.

Biblioqrafiyada Hidayət təkcə bir şair-dramaturq kimi deyil, həm də bacarıqlı təşkilatçı, mükəmməl ictimai-siyasi xadim kimi oxuculara təqdim edilmişdir. Burada "C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında fəaliyyəti", "Azərbaycan Respublikasının Milli Siyasət Məsələləri üzrə Dövlət müşaviri kimi fəaliyyəti", "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri kimi fəaliyyəti" adlı bölmələrdə şairin ictimai-siyasi fəaliyyətindən bəhs edən materiallar xronoloji ardıcıllıqla əks etdirilmişdir.

Biblioqrafiyanın sonunda oxucuların vəsaitdən daha asan və rahat istifadəsini təmin etmək məqsədilə Azərbaycan və rus dillərində "Əsərlərinin əlifba göstəricisi", "Hidayət Orucov haqqında yazan müəlliflərin əlifba göstəricisi", "Sərlövhə üzrə təsvir edilmiş ədəbiyyatın əlifba göstəricisi" adlı köməkçi aparat tərtib edilmişdir.

Özündə zəngin informasiyanı əks etdirən geniş elmi, təcrübi əhəmiyyətə malik bu biblioqrafik informasiya mənbəyi ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün böyük bir töhfədir.

**Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

## Hidayətin həyat və fəaliyyətinin əsas tarixləri

**1944** - Hidayət Xuduş oğlu Orucov sentyabr ayının 5-də Zəngəzurun Mığrı bölgəsinin Maralzəmi kəndində anadan olmuşdur.

**1963** - S.Vurğun adına Aldərə kənd orta məktəbini qızıl medalla bitirmişdir;
- "Ədəbi Ermənistan" almanaxında ilk şeiri - "Nəyim var" çap olunub.

**1963-1968** - Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almışdır.

**1964** - Təhsilini qiyabi şöbədə davam etdirərək doğma kəndində məktəb müdiri işləmişdir.

**1966** - "Sovet Ermənistanı" qəzetinə dəvət olunmuş və qəzetin ədəbi işçisi təyin edilmişdir.

**1968** - C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor təyin olunmuş və 16 il bu sənət ocağına rəhbərlik etmişdir.

**1970** - İrəvanda "Ermənistan" nəşriyyatında "Məni səsləyəndə" adlı ilk şeirlər kitabı nəşr olunmuşdur;





- SSRİ-nin "Rəşadətli əməyə görə" medalı ilə təltif olunmuşdur.

**1973** - İrəvanda "Ermənistan" nəşriyyatında "Məhəbbət qocalmır" adlı şeirlər kitabı çap olunmuşdur.

**1975** - C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Məhəbbət yaşayır hələ..." pyesi tamaşaya qoyulmuşdur (quruluşçu rejissoru N.Sadıqzadə).

**1977** - İrəvanda "Sovet Yazıçısı" nəşriyyatında "Bir az gözləyin məni" şeirlər kitabı nəşr olunmuşdur;
- "Bir teatrın üç aktyoru" adlı kitabı Ermənistan Teatr Cəmiyyəti tərəfindən çap olunmuşdur.

**1978** - "Gənclik" nəşriyyatında "Dənizi harayladım" kitabı işıq üzü görmüşdür;
- Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur;
- "Ermənistan SSR Əməkdar mədəniyyət xadimi" fəxri adı verilmişdir.

**1981** - C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Məni qınamayın" adlı pyesi tamaşaya qoyulmuşdur (quruluşçu rejissor A.Kazımov);
- "Yazıçı" nəşriyyatında "Eviniz analı olsun" şeirlər kitabı nəşr olunmuşdur.

**1982** - İrəvanda "Sovet Yazıçısı" nəşriyyatında "Zirvə cığırı" adlı şeirlər kitabı nəşr olunmuşdur.

**1984** - İrəvanda "Sovet Yazıçısı" nəşriyyatında "İrəvanda xal qalmadı" adlı nəsr, dramatik və publisist əsərlərindən ibarət kitabı nəşr olunmuşdur;
-Bakı şəhərinə köçmüş və "Gənclik" nəşriyyatında baş redaktorun müavini vəzifəsində çalışmışdır;
-Tərtib etdiyi "Samed Vurqun" kitabı "Gənclik" nəşriyyatında rus dilində nəşr olunmuşdur.

**1986** - "Yazıçı" nəşriyyatında "Qatardan məktub" adlı şeirlər kitabı nəşr olunmuşdur;
- "Gənclik" nəşriyyatının baş redaktoru vəzifəsinə təyin edilmişdir.

**1988** - Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və soydaşlarımıza qarşı deportasiya və soyqırımı siyasətinə etiraz olaraq "Ermənistan SSR Əməkdar mədəniyyət xadimi" fəxri adından rəsmən imtina etmişdir.

**1989** - "Yazıçı" nəşriyyatında "Sabaha çox var" nəsr və publisistika kitabı nəşr olunmuşdur.

**1990** - Tərtib etdiyi "Didərginlər" kitabı "Gənclik" nəşriyyatında nəşr olunmuşdur.





**1991** - Tərcümə etdiyi H.Biçer-Stounun "Tom dayının daxması" romanı "Gənclik" nəşriyyatında nəşr edilmişdir;
- "Gənclik" nəşriyyatında rus dilində "Ya tak jivu" kitabı nəşr olunmuşdur;
- M.Aslanla birlikdə tərtib və tərcümə etdikləri türk ədəbiyyatından seçmələrdən ibarət "Gözəllik suyu" adlı toplunu nəşr etdirmişdir;
- "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

**1992** - Avqust ayının 1-dən Azərbaycan Respublikası Prezidentinin millətlərarası münasibətlər üzrə Müşaviri vəzifəsinə təyin olunmuşdur;
- M.Talıblı ilə birlikdə tərtib və tərcümə etdikləri "Yuxu yozumları" adlı ensiklopediya "Gənclik" nəşriyyatında nəşr olunmuşdur;
- "Şahidlər" kitabını tərtib etmiş və "Gənclik" nəşriyyatında nəşr etdirmişdir;
- "Doxsanıncı il" adlı şeirlər kitabı "Yazıçı" nəşriyyatında nəşr olunmuşdur;
-"Didərginlər" kitabı rus dilində nəşr edilmişdir.

**1993** - Azərbaycan Respublikasının Milli siyasət məsələləri üzrə Dövlət müşaviri vəzifəsinə təyin olunmuşdur.

**1995** - Buraxılışına məsul Ramiz Mehdiyev, tərtibçisi Hidayət Orucov olan "Azərbay-

can. Oktyabr - 94, Mart - 95. Qəsd. Dövlət çevrilişi cəhdlərinin xronikası" kitabı Azərnəşrdə nəşr olunmuşdur;
- "Kitab" cəmiyyətində "Həsrət" adlı miniatür şeirlər kitabı nəşr edilmişdir.

**1996** - Azərbaycan Dövlət Nəşriyyatında tərtibçisi olduğu "Əsrin müqaviləsi " kitabı nəşr olunmuşdur.

**1999** - "Sənsiz" kitabı gürcü dilində "Merani" nəşriyyatında nəşr edilmişdir;
- "Şərq-Qərb" nəşriyyatında "Sözün vaxtı" adlı publisistika toplusu nəşr olunmuşdur;
- "Yuxu yozumları" kitabı təkrar Azərbaycan-Amerika Mədəniyyət Mərkəzində nəşr olunmuşdur;
- "Hərdən xatırla məni" şeirlər kitabı "Göytürk" nəşriyyatında nəşr edilmişdir.

**2000** - "Bu dünyanın adamları" pyesi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur (quruluşçu rejissor M.Fərzəlibəyov).

**2001** - "Heydər Əliyev və Azərbaycanda milli siyasət" kitabı Azərbaycan və rus dillərində "Şərq-Qərb" nəşriyyatında nəşr olunmuşdur;
- Türkiyənin Ankara şəhərində "Ata kabri" kitabı çap olunmuşdur.





**2002** - "Heydər Əliyev və Azərbaycanda milli siyasət" kitabı Azərbaycan və ingilis dillərində "Şərq-Qərb" nəşriyyatında nəşr olunmuşdur;
- "Ömrümün çəhlimləri" adlı kitabı Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatında çap edilmişdir;
- "Bu dünyanın adamları" pyesi Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında tamaşaya qoyulmuşdur (quruluşçu rejissor A.Şarovski);
- Gürcüstan Prezidenti Eduard Şevardnadzenin 17 dekabr 2002-ci il tarixli sərəncamı ilə Gürcüstan və Azərbaycan arasında ədəbi-mədəni əlaqələrin möhkəmlənməsində mühüm xidmətlərinə, gürcü mövzusunda yaratdığı bədii əsərlərinə, gürcü ədəbi irsinin yüksək peşəkar səviyyədə tərcüməsi və nəşrinə görə "Şərəf" ordeni ilə təltif edilmişdir.

**2003** - "Heydər Əliyev və Azərbaycanda milli siyasət" kitabı Azərbaycan və gürcü dillərində "İntellekt" nəşriyyatında nəşr olunmuşdur;
- "До завтра еще далеко" adlı kitabı Mahaçqalada Dağıstan Respublikasının on üç dövlət dilində nəşr olunmuşdur;
- Rus-Pravoslav kilsəsinin "Müqəddəs Mömin Moskva knyazı Daniil" ordeni ilə təltif edilmişdir;
- Paydul İskeyev adına Beynəlxalq Çuvaşıstan Ədəbiyyat Mükafatı laureatı olmuşdur.

**2004** - Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur;
- Dağıstan Respublikasının Fəxri Fərmanı ilə təltif olunmuşdur;
- "Burdan min atlı keçdi" kitabı Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatında nəşr olunmuşdur;
- "İrəvana 7 məktub" kitabı "Əbilov, Zeynalov və oğulları" nəşriyyatında nəşr edilmişdir;
- "Bu dünyanın adamları" pyesi Ankara Bələdiyyə Teatrında tamaşaya qoyulmuşdur.

**2005** - "Zəngəzurda doğuldum" adlı kitabı "Əbilov, Zeynalov və oğulları" nəşriyyatında nəşr edilmişdir;
- Azərbaycan Respublikasının milli azlıqlar və dini qurumlarla iş üzrə Dövlət müşaviri vəzifəsinə təyin olunmuşdur.

**2006** - Azərbaycan Respublikası Prezidentinin 25 iyul 2006-cı il Sərəncamı ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir;
- "Mir Cəlal dünyasından sətirlər" adlı kitabı "Əbilov, Zeynalov və oğulları" nəşriyyatında nəşr olunmuşdur.

**2007** - "Əziz Əliyev. Odlar yurdunun və dağlar diyarının iftixarı" kitabı "Əbilov, Zeynalov və oğulları" nəşriyyatında çap edilmişdir;
- "Seçilmiş əsərləri" "Şərq-Qərb" nəşriyyatında buraxılmışdır.





**2008** - "Heydər Əliyev və Azərbaycanda milli siyasət" kitabı Səudiyyə Ərəbistanında ərəb dilində nəşr olunmuşdur.

**2010** - Rus Pravoslav kilsəsinin "Şöhrət və Şərəf" ordeni ilə təltif edilmişdir;
- "Heydər Əliyev və Azərbaycanda milli siyasət" kitabı Səudiyyə Ərəbistanında ikinci dəfə ərəb dilində nəşr olunmuşdur;
- "Heydər Əliyev və Azərbaycanda milli siyasət" kitabı Türkiyədə "DA Yayıncılık" tərəfindən türk dilində nəşr olunmuşdur.

**2011** - Özbəkistanın "Mənəviyyat" nəşriyyatında "Dağlar nəğməsi" adlı kitabı özbək dilində nəşr edilmişdir.

**2011-2012** - "Apostroff" nəşriyyatında əsərlərinin səkkizcildliyi nəşr olunmuşdur;
- Türk, ingilis, rus, gürcü, island və başqa xalqların ədəbiyyatından çevirmələr - "Özüm yazmaq istərdim" toplusu və "Tom dayının daxması" romanından ibarət ikicildliyi çap olunmuşdur.
- Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2012-ci il tarixli Sərəncamı ilə ona Prezident təqaüdü təyin edilmişdir;
- Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2012-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Qırğız Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyin edilmişdir.

## Основные даты жизни и творчества Гидаята

**1944** - 5 сентября родился в селе Маралземи Мигринского района (Зангезур).

**1963** - В селе Алдере окончил среднюю школу им. Самеда Вургуна с золотой медалью;
- В журнале «Эдеби Эрменистан» («Литературная Армения») впервые опубликовано стихотворение «Что есть у меня».

**1963-1968** - Учился на филологическом факультете Азербайджанского Государственного Университета (нынешний Бакинский Государственной Университет).

**1964** - Продолжил учебу на заочном отделении, работал директором школы в родном селе.

**1966** - Приглашен в республиканскую газету «Совет Эрменистаны» («Советская Армения»), работал литературным сотрудником.

**1968** - Назначен на должность директора Ереванского Государственного Азербайджанского драматического театра





им. Дж.Джабарлы, которым руководил 16 лет.

**1970** - В ереванском издательстве «Армения» издана первая книга стихов «Когда меня позовешь»;
- Награжден медалью СССР «За трудовую доблесть».

**1973** - В ереванском издательстве «Армения» издан сборник стихов «Не стареет любовь».

**1975** - В Иреванском Государственном Азербайджанском драматическом театре им. Дж.Джабарлы осуществлена постановка пьесы «Пока живет любовь...» (режиссер-постановщик Насир Садыгзаде);
- В Ереванском Государственном Азербайджанском драматическом театре им. Дж.Джабарлы осуществлена постановка пьесы «Пока живет любовь» (режиссер-постановщик Насир Садыгзаде).

**1977** - В ереванском издательстве «Советский писатель» вышла в свет книга стихов и поем «Чуток подождите меня»;
- В издательстве Армянского Театрального Общества напечатана книга под названием «Три актера одного театра».

**1978** - В издательстве «Гянджлик» выпущена книга стихов «Я к морю взывал»;

- Награжден Почетной Грамотой Президиума Верховного Совета Азербайджанской ССР;
- Удостоен почетного звания «Заслуженный деятель культуры Армянской ССР».

**1981** - В издательстве «Язычи» вышла книга стихов «Да будет ваш очаг согрет матерью».
- В Ереванском Государственном Азербайджанском драматическом театре им. Дж.Джабарлы осуществлена постановка пьесы «Не обессудьте меня» (режиссер-постановщик Агакиши Казымов).

**1982** - В Ереванском издательстве «Советский писатель» выпущена книга стихов «Тропа на вершину».

**1984** - В Ереванском издательстве «Советский писатель» напечатан сборник прозы, пьес и публицистики под названием «В Эривани родинок не осталось...»;
- переехал в город Баку, был назначен заместителем главного редактора издательства «Гянджлик»;
- Составленная им книга «Самед Вургун» была издана на русском языке в издательстве «Гянджлик».

**1986** - В издательстве «Язычи» вышла в свет книга стихов под названием «Письмо с поезда»;





- Назначен главным редактором издательства «Гянджлик».

**1988** - В связи с вторжением Армении в Азербайджан официально отказался от почетного звания «Заслуженный деятель культуры Армянской ССР».

**1989** - В издательстве «Язычи» напечатана книга «До завтра еще далеко...» (проза и публицистика);
- Был издан перевод на азербайджанский язык пьесы У.Шекспира «Конец делу - венец» (Издательство «Язычи», 1989 г.) – сборник У.Шекспира «Пьесы».

**1990** - В издательстве «Гянджлик» издана книга под названием «Беженцы», составленная Гидаятом.

**1991** - Удостоен почетного звания «Заслуженный деятель искусств Азербайджанской Республики».
- Роман Г.Бичер-Стоун «Хижина дяди Тома» в переводе Гидаята вышел в свет в издательстве «Гянджлик»;
- В издательстве «Гянджлик» на русском языке выпущена книга стихов и поэм «Я так живу»;
- Опубликовал составленный и переведенный совместно с М.Асланом сборник под названием «Родник красоты» (избранное из турецкой литературы);

**1992** - 1 августа 1992 года назначен Советником Президента Азербайджанской Республики по межнациональным отношениям;
- Гидаятом и Музаффаром Талыблы составлены и переведены «Толкования снов», выпущенные издательством «Гянджлик»;
- Составлена книга под названием «Шахиды» и напечатана в издательстве «Гянджлик»;
- В издательстве «Язычи» напечатан сборник стихотворений и поэм «Девяностый год».

**1993** - Назначен Государственным советником Азербайджанской Республики по вопросам национальной политики.

**1995** - Обществом «Азернешр» издана книга «Азербайджан. Октябрь - 94, Март - 95. Покушение. Хроника попыток государственно переворота»;
- Обществом «Книга» миниатюрным форматом издан сборник стихов «Ностальгия»;
- Вышла книга стихов на грузинском языке под названием «Тоска» в издательстве «Мерани» (Перевод с азербайджанского Имир Мамедли).

**1999** - Книга под названием «Без тебя» на грузинском языке выпущена в издательстве «Мерани» в переводе известных грузинских поэтов;





- В издательстве «Шарг-Гарб» напечатана публицистическая книга под названием «Время слова»;
- Переиздан сборник «Толкования снов» в издательстве «Азербайджанско-американский культурный центр»;
- Книга стихов «Вспоминай обо мне иногда» была издана в издательстве «Гейтюрк».

**2000** - На сцене Азербайджанского Национального Академического Драматического Театра была поставлена пьеса «Люди мира сего».

**2001** - Книга «Отчая могила» была издана в Анкаре (Турция);
- Книга «Гейдар Алиев и национальная политика в Азербайджане» была издана на азербайджанском и русском языках в издательстве «Шарг-Гарб».

**2002** - Указом Президента Грузии Эдуарда Шеварднадзе, от 17 декабря 2002 года за заслуги в деле укрепления грузино-азербайджанских отношений, за создание произведений по грузинской тематике, профессиональном переводе и -публикации грузинского литературного наследия был награжден орденом «Слава».

- Издана книга «Меты жизни моей» в издательстве «Национальная энциклопедия Азербайджана»;
- На сцене Русского драматического театра имени Самеда Вургуна была поставлена пьеса «Люди мира сего»;
- В 2002 году книга «Гейдар Алиев и национальная политика в Азербайджане» переиздана на азербайджанском и русском языках в издательстве «Шарг-Гарб».

**2003**

- Книга «Гейдар Алиев и национальная политика в Азербайджане» вышла на азербайджанском и грузинском языках в издательстве «Интеллект»;
- В Махачкале на тринадцати государственных языках Республики Дагестан вышла книга «До завтра еще далеко»;
- Был награжден орденом «Благо-верный князь Даниил Московский» III степени Русской православной церкви;
- Стал лауреатом Международной премии Чувашской литературы имени Пайдуллы Искеева.

**2004**

- Указом Президента Азербайджанский Республики был награжден орденом «Слава»;
- Был награжден Почетной Грамотой Республики Дагестан;
- Вышла книга «Здесь промчалась конниц тьма» в издательстве «Национальная Энциклопедия Азербайджана»;





- Издана книга «Семь писем в Ереван» в издательстве «Абилов, Зейналов и сыновья»;
- На сцене Муниципального театра в Анкаре была поставлена пьеса «Люди мира сего».

**2005**

- Вышла книга «Я родился в Зангезуре» в издательстве «Абилов, Зейналов и сыновья»;
- Был назначен на должность Государственного советника Азербайджанской Республики по работе с национальными меньшинствами и религиозными образованиями.

**2006**

- Был назначен председателем Государственного Комитета по работе с религиозными образованиями по Указу Президента Азербайджанской Республики от 25 июля 2006 года;
- Вышла книга «Строки из мира Мир Джалала» в издательстве «Абилов, Зейналов и сыновья».

**2007**

- Вышла книга «Азиз Алиев: гордость Страны Огней и Края Гор» в издательстве «Абилов, Зейналов и сыновья»;
- Была издана книга «Избранное» в издательстве «Шарг-Гарб».

**2008**

- Книга «Гейдар Алиев и национальная политика в Азербайджане» была издана на арабском языке в Саудовской Аравии.

**2010** - Был награжден орденом «Слава и почет III-й степени» Русской православной церкви;
- Книга «Гейдар Алиев и национальная политика в Азербайджане» была издана во второй раз на арабском языке в Саудовской Аравии.
- Книга «Гейдар Алиев и национальная политика в Азербайджане» переиздана в Турции в издательстве «ДА» на турецком языке.

**2011** - В узбекском издательстве «Манавият» была издана его книга под названием «Песня гор».

**2011-2012** - Был издан сборник переводов с турецкого, английского, русского, грузинского, исландского, а также из литературных произведений других народов под газванием «Хотелось бы самому написать» и двутомник романа Г.Бичер-Стоу «Хижина дяди Тома»;
- Распоряжение Президента Азербайджанской Республики от 5 июня 2012-го года о назначении Президентской пенсии;
- Идаят Оруджев был назначен чрезвычайным и полномочным послом Азербайджана в Республике Кыргызстан по Распоряжению Президента Азербайджанской Республики от 27 декабря 2012 года.





## Hidayat and the main dates of his activity

**1944** - He was born in September 5, in Maralzami village of the Mighri region of Zangazur.

**1963** - He finished Aldara secondary school named after Samad Vurghun with a gold medal;
- His first poem "Nayim var" ("What I have") was published in the journal "Adabi Ermanistan" ("Literal Armenia").

**1963-1968** - He studed at the Faculty of Philology in the Azerbaijan State University (present Baku State University).

**1964** - He continued his tuition by correspondence and worked as a director of school in his native village.

**1966** - He was invited to work in the newspaper "Soviet Armenia" and was appointed a literary worker of the newspaper.

**1968** - He was appointed a director of Iravan State Azerbaijan Drama Theatre named after J.Jabbarli and he directed this center of art for 16 years.

**1970** - His first book of poems “Mani saslayanda” (“When you call me”) was published in the “Armenia” Publishing House in Iravan;
- He was awarded by the medal “For Labour Valour” of USSR.

**1973** - The book of poems “Mahabbat gojalmir” (“Love is not getting older”) was published in the “Armenia” Publishing House in Iravan.

**1975** - The play “Love is still living…” was performed in Iravan State Azerbaijan Drama Theatre named after J.Jabbarli (a stage-director of which is N. Sadigzade).

**1977** - The book of poems “Bir az gozleyin mani” (“Wait for me for a while”) was published in the “Sovet writer” Publishing House in Iravan;
- The collection “Bir teatrin uch aktyoru” (“Three actors of a one theatre”) was printed by the Armenian Theatre Society.

**1978** - The book “Danizi harayladim” (“I called the sea”) was issued in the “Ganjlik” Publishing House;
- He was awarded with Honorary Decree of the Presidium of the Supreme Soviet of Azerbaijan SSR;
- He was awarded with the title of Honored Worker of Culture of the Armenian SSR.





**1981** - The play “Mani ginamayin” (“Do not reproach me”) was performed in Iravan State Azerbaijan Drama Theatre named after J.Jabbarli (a stage-director of which is A.Kazimov);
- The book of poems “Eviniz anali olsun” (“Let your home be with mothers”) was published in the “Yazichi” (“Writer”) Publishing House;

**1982** - The book of poems “Zirva jighiri” (“The path to the peak”) was published in the “Sovet writer” Publishing House in Iravan.

**1984** - The book consisting of his prose, dramatic and publicistic works “Iravanda khal galmadi” (“There is not left a mole in Iravan”) was published in the “Sovet writer” Publishing House in Iravan;
- He was appointed a deputy of editor-in-chief of “Ganjlik” Publishing House;
- The book “Samed Vurgun” compiled by him was published in Russian in the “Ganjlik” publisher.

**1986** - The book of poems “Gatardan maktub” (“A letter from train”) was issued in “Yazichi” Publishing House;
- He was appointed an editor-in-chief of “Ganjlik” Publishing House.

**1988** - He officially refused from the title of Honored Worker of Culture of the Armenian SSR as a protest against the military

aggression of Armenia towards Azerbaijan and its deportation and genocide policy against our cognates.

**1989** - The prose and journalistic book “Sabaha chokh var” (“There is a lot of time till tomorrow”) was published in the “Yazichi” Publishing House.

**1990** - The book “Didarginlar” (“The displaced”) composed by Hidayat was published in the “Ganjlik” Publishing House .

**1991** - The translation of the novel of H.Beecher Stowe “Uncle Tom’s cabin” was published in the “Ganjlik” Publishing House;
- The book “Ya tak jivu” (“I live like that”) was published in the Russian language in the “Ganjlik” Publishing House;
- The collection of selected poems from Turkish literature – “Gozallik suyu” (“Water of Beauty”) composed and translated together with M.Aslan was published in the “Ganjlik” Publishing House;
- He was awarded with a honorary title of Honored Art Worker of the Republic of Azerbaijan.

**1992** - On August 1 he was appointed as the Counsellor of the President of Azerbaijan Republic on the Interethnic relations;
- The encyclopedia “Yukhu yozumlari” (“Interpretations of dreams”) composed





and translated together with M.Talibli was published in the “Ganjlik” Publishing House;
- The book “Shahidlar” (“Witnesses”) was composed and published in the “Ganjlik” Publishing House;
- The book of poems “Dokhsaninji il” (“The year of Ninetieth”) was published in “Yazichi” Publishing House.

**1993** - He was appointed as the State Counscellor of the Republic of Azerbaijan on the Issues of National Policy.

**1995** - The book “Azerbaijan. October – 94, March – 95. Attemp. Chronology of coup d'etat attempts” was published in the “Azarnashr” Publishing House;
- The miniature book of poems “Hasrat” (“Anguish”) was issued in the “Book” Society;

**1999** - The book “Sansiz” (“Without you”) was published in the “Merani” Publishing House in the Georgian language.
- The publicistic collection “Sozun vakhti” (“The time of a word”) was published in the «Sharg-Garb» (“East-West”) Publishing House;
- The collection «Interpretations of dreams” was republished in the Azerbaijan-American Centre of Culture;
- The book of poems “Hardan khatirla mani” (“Remember me sometimes”) was published in “Goyturk” Publishing House.

**2000** - The play "Bu dunyanin adamlari" ("The people of this world") was put into the stage in the Azerbaijan National Academic Drama Theatre.

**2001** - The book "Ata kabri" ("A father's grave") was published in Ankara, Turkey;
- The book "Haydar Aliyev and the national policy in Azerbaijan" was published in the Azerbaijan and Russian languages in the "Sharg-Garb" Publishing House.

**2002** - The book "Omrumun chahlimlari" ("The traces of my life") was published in the "Publishing House of Azerbaijan National Encyclopaedia";
- The play "The people of this world" was performed in the Russian State Drama Theatre named after Samad Vurghun.
- The book "Haydar Aliyev and the national policy in Azerbaijan" was published in the Azerbaijan and Russian languages in the "Sharg-Garb" Publishing House;
- He was awarded with the Order of "Honour" by the Decree of the President of Georgia Eduard Shevardnadze dated December 17, 2002 for his significant activities in the direction of strengthening literal and cultural relations between Georgia and Azerbaijan, for his literary works about Georgia and for professional translation and publications of Georgian literary heritage.





**2003** - The book "Haydar Aliyev and the national policy in Azerbaijan" was published in the Azerbaijan and Georgian languages in the "Intellect" Publishing House;
- The book "До завтра еще далеко" was published in Makhachkala in thirteen State languages of the Republic of Dagestan;
- He was awarded with the 3rd class Order of Holy Prince Daniel of Moscow of the Russian Orthodox Church;
- He was a laureate of the International Award of Chuvash Literature named after Paydulla Iskeyev.

**2004** - He was awarded with the Order of "Glory" by the Decree of the President of the Republic of Azerbaijan;
- The book "Burdan min atli kechdi" ("Thousand riders passed from here") was published in the "Publishing House of Azerbaijan National Encyclopaedia";
- The book "Iravana yeddi maktub" ("7 letters to Iravan") was published in the "Abilov, Zeynalov and their sons" Publishing House;
- He was awarded with the Order of "Honour" of the Dagestan Republic;
- The play "The people of this world" was performed in the Ankara Belediyye Theatre.

**2005** - The book "Zangazurda doghuldum" ("I was born in Zangazur") was published in the "Abilov, Zeynalov and their sons" Publishing House;

- He was appointed to the position of the State Councillor of the Republic of Azerbaijan on the Work with National Minorities and Religious Organizations.

**2006** - By the Decree of the President of the Republic of Azerbaijan, dated July 25, 2006 he was appointed as a Chairman of the State Committee of the Republic of Azerbaijan on the Work with Religious Organizations;
- The book "Mir Jalal dunyasindan satirlar" ("The lines from Mir Jalal's world") was published in the "Abilov, Zeynalov and their sons" Publishing House.

**2007** - The book "Aziz Aliyev. Odlar yurdunun va daghlar diyarinin iftikhari" ("Aziz Aliyev: a proud of the Land of Fires and the Land of Mountains") was published in the "Abilov, Zeynalov and their sons" Publishing House;
- The book "Sechilmish asarlari" ("Selected works") was published in the «Sharg-Garb» Publishing House.

**2008** - The book "Heydar Aliyev and the national policy in Azerbaijan" was published in the Arabic language in Saudi Arabia.

**2010** - He was awarded with "The 3rd class Glory and Honor" Order of the Russian Orthodox Church;
- The book "Heydar Aliyev and the national policy in Azerbaijan" was published in the Arabic language for the second time in Saudi Arabia;
- The book "Heydar Aliyev and the national policy in Azerbaijan" was published in the Turkish language in "DA Yayinjilik" Publishing House in Turkey.





**2011** - His "Melody of mountains" (Dağlar nəğməsi) book was published in Uzbek language in "Meneviyyat" publishing house in Uzbekistan.

**2011-2012** - His two-volume edition consisting of "I would like to write myself" (Özüm yazmaq istərdim) collection and "Uncle Tom's shack" (Tom dayının daxması) novel - translations from Turkish, English, Russian, Georgian, Icelandic and other nations literature were published.
- Eight-volume edition of his works were published in "Apastroff" publishing house;
- On decree of President of Azerbaijan Republic dated 05 June 2012 he was granted with President Pension.
- Under order of President of Azerbaijan Republic dated on December 27, 2012 he was assigned to the position of Extraordinary and Plenipotentiary ambassador of Azerbaijan Republic in Kyrgyz Republic.

## Qələm dostları, ədəbiyyat, mədəniyyət xadimləri və oxucuları Hidayət haqqında

Hidayət şairdir, nasirdir, dövlət xadimidir, ictimaiyyətçidir. Onun çoxsaylı və həm də sanballı bədii, poetik, eləcə də publisist əsərləri geniş oxucu kütləsi tərəfindən sevilə-sevilə oxunur. Hidayət sakit təbiətli, mədəni bir ziyalıdır. Qayğıkeşlik onun varlığına hopduğundan o daim xeyirxahlıq etmiş, bir çox insanlara arxa olmuşdur.

Hidayətdə olan milli qeyrət onun bütün yazılarında, rəsmi və qeyri-rəsmi fəaliyyətində özünü göstərir...

Hidayət dəyərli vətəndaşdır, vətən oğludur.

**Budaq Budaqov,**
*akademik*

"Şəxsiyyəti və yaradıcılığı ilə xalqın məhəbbətini və dərin hörmətini qazanmış Hidayətin əsərlərini oxuculara bu qədər sevdirən nədir" sualının düzgün cavablarından biri də, yəqin ki, belə olardı: "Onun əsərlərinin dilinin gözəlliyi və təbiiliyi."

Həmişə köksündə olduğu ana torpağın, gəzib dolaşdığı meşələrin, suyunu içdiyi büllur bulaqların, bütün varlığı ilə sevdiyi və həmişə arasında olduğu sadə insanların nəfəsi, səsi var onun əsərlərində. Xəlqilik və səmimilik Hidayətin şeirlərinin, nəsr və dram əsərlərinin dilinin canında və qanındadır. Şəxsiyyəti ilə yaradıcılığı hər zaman qırılmaz vəhdətdə olan şair, nasir, dramaturq Hidayətin dili ilə daima oxucuları arasında olan, onlarla şirin söhbətlər edən vətəndaş Hidayətin dili arasında bənzərsiz bir uyğunluq var və bu bənzərsiz uyğunluq böyük alman alimi Vilhelm Humboldtun sözlərini yada salır:





"Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir - bundan güclü olan eynilik təsəvvür etmək çətindir".

**Ağamusa Axundov,**
*akademik*

Hidayət müəllimin pərəstişkarları təkcə Azərbaycanda deyil, onun hüdüdlarından kənarda da kifayət qədərdir. Əbəs deyildir ki, onun 20-dən çox xarici dillərə tərcümə olunmuş əsərləri müxtəlif ölkələrin xalqları tərəfindən rəğbətlə qarşılanır, sevilə-sevilə oxunur. Hidayət müəllim bəşəri bir yazıçı olduğuna görə, dünya ədəbi-bədii nümunələrinin bir qismini ana dilimizə çevirərək, xalqlar arasında salınan ədəbi ünsiyyət körpülərinin daha da möhkəmlənməsinə zəmin yaradır.

Hidayət müəllimin ictimai xadim kimi fəaliyyəti Azərbaycanın dövlət müstəqilliyinin bərpasına, bərqərar olmasına, möhkəmləndirilməsinə, eləcə də xalqlar arasında əlaqələrin genişləndirilməsi, millətlər arasındakı münasibətlərin yaxşılaşdırılması istiqamətində görülən işlərə lazımi töhfələr verməkdə davam edir. Bu fəaliyyətin dövlətimiz tərəfindən layiqincə qiymətləndirilməsi hamımızı ürəkdən sevindirir. Onun vətənin yüksək təltiflərindən olan "Şöhrət" ordeninə, "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülməsi ölkəmizdə ona verilən qiymətin dəyərli məzmununu təcəssüm etdirir.

**Əhliman Əmiraslanov,**
*akademik*

Vətəndaşlıq Hidayətin çoxcəhətli yaradıcılığının cövhəri, mahiyyətidir. O, yeni mərhələdə Azərbaycanda dərin ictimai məzmunlu vətəndaş poeziyasının, yüksək vətəndaşlıq ruhuna malik olan publisistikanın və səhnəyə həyat nəfəsi bəxş edən dramaturgiyanın əsas yaradıcılarından biri kimi böyük nüfuz qazanmışdır. Ciddi vətəndaşlıq mövqeyi və məsuliyyət şair, publisist və dramaturq Hidayəti bütün yönləri ilə tam şəkildə

mənalandırır. Hidayətin sözü də, özü də təmənnasız, məsuliyyətdən yoğrulmuş vətəndaşlığın şərəfli taleyini yaşamaqda davam edir. Əxlaqi-mənəvi dəyərlərə, cəmiyyət hadisələrinə və söz sənətinə münasibətdə illərdən bəri davam edən məsuliyyət duyğusu Hidayətə bir şəxsiyyət kimi də, sənətkar kimi də ucalıq gətirir. Şairin avtoportret səpkili şeirlərinin hamısında yüksək əxlaqi-mənəvi dəyərlər, şəxsiyyətin bütövlüyü və əsl vətəndaş mövqeyi ifadə olunur. Geniş mənada Hidayətin yaradıcılığı onun ömrünün, taleyinin poetik monoloqudur. Lakin şair bir taleyin monoloqunu millətin monoloquna çevirməyi bacarmışdır. Və bu monoloq həmişəki sabit, təmkinli tempi, milli qayəsi, ictimai dəyərləri, həqiqi vətəndaşlıq yanğısı ilə çağlamaqda davam edir.

**İsa Həbibbəyli,**
*akademik*

Hidayətin ilk şeir kitabına ön söz yazmışam. Sonradan başqa kitabları haqqında ürək sözlərimi söyləmişəm. Amma ürəyim hələ boşalmayıb, əksinə, son illər daha da dolub, çünki torpaq təəssübü, xalqımızın mənəviyyatını əks etdirən can yanğısı, mərdliklə namərdliyin, düzlüklə əyriliyin əlbəyaxa vuruşu getdikcə onun yaradıcılığında elə təbii, eyni zamanda elə qabarıq canlanır ki, hətta şeirin janrlarına sığmır, nəsrə çevrilir, kəsərli publisistikaya çevrilir...

Hidayət həm bir vətəndaş, həm də yazıçı kimi sözün düzünü deməyə çalışır və buna nail olur.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi, akademik*

Hesab edirəm ki, Hidayət Orucovun bioqrafiyası iftixar etməli və öyrənməli ömür yoludur! Bütün bu üstün keyfiyyətlərinə görə mən Hidayət Orucovu həmişə həyatının mənasını xalqa, Vətəninə təmənnasız xidmətdə görən aydın zəkalı, milli mənafeyi həmişə şəxsi mənafedən üstün tutan və bütün ədəbi,





mədəni və dövlətçilik fəaliyyətini bu müqəddəs amala həsr etmiş nurlu şəxsiyyət kimi tanıyır, dərin hörmət və ehtiram bəsləyirəm. Hidayət Orucov tanınmış yazıçı, dövlət xadimi olmaqla yanaşı, xeyirxah insan, hamıya örnək olan vətəndaş ziyalı və ziyalılığı yüksək tutan dövlət adamıdır. Ziyalı millətin yoluna işıq tutan, insanları haqqa, ədalətə, sülhə, dostluğa, barışa səsləyən böyük hərflə yazılan İNSANdır. Ziyalı xalqın düşünən beyni, mənəvi diriliyidir. Ziyalı Vətən və millət yolunda zəkasını, ağlını, intellektual potensialını əsirgəməyən İNSANdır. Ziyalı həm xalqına, dövlətinə, dövlətçiliyinə sədaqətlə xidməti ilə, onlara verdiklərinin sanbalı və miqyası ilə böyükdür. Ziyalı üçün Vətən sevgisindən, millət duyğusundan ali hiss yoxdur!!!

Hidayət Orucov məhz bu sadaladığım milli-mənəvi dəyərləri özündə cəmləşdirən, fəaliyyətində onları gerçəkləşdirən milli ruhlu, vətəndaş qeyrətli, xeyirxah ziyalılarımızdandır...

**Misir Mərdanov,**
*professor*

Hidayətin yaradıcılıq yolu ilə yaxından tanışlıq göstərir ki, o, 60-70-ci illərdə daha çox bir şair, 80-ci illərin birinci yarısında daha çox bir nasir, həmin onilliyin ortalarından sonra isə daha çox bir publisist kimi məşhurlaşmışdır. Əlbəttə, bu cür yaradıcılıq təkamülünün yalnız subyektiv maraq, daxili tələbatla əlaqədar olduğunu söyləmək düzgün deyil. Şeirdən nəsrə, oradan da publisistikaya keçmək (və əlavə edim ki, müəyyən tarixi ardıcıllıqla keçmək) birinci növbədə dövrün, Azərbaycan cəmiyyətində baş verən ictimai-siyasi, ideya-estetik proseslərin, təbəddülatların təsirinin nəticəsi idi. Hidayət yaradıcılığının xarakteri təbiət etibarı ilə cəmiyyət yazıçısıdır, onun bədii təfəkkürü cəmiyyətlə nəfəs alır, gücünü, enerjisini ictimai həyatdan götürür və ona görə də ictimailəşir.

...Mən əminəm ki, Hidayətin yaradıcılığı bundan sonra da mənsub olduğu xalqın həyatını bu və ya digər mərhələdəki sosial düşüncəsini kifayət qədər geniş, əhatəli, müfəssəl bir

şəkildə əks etdirməyinə, sənətkarlıq səviyyəsinin yüksəkliyinə, ifadə səmimiliyinə görə həmişə (və hər yerdə) diqqəti çəkəcək, maraq doğuracaqdır.

**Nizami Cəfərov,**
*AMEA-nın müxbir üzvü, professor*

Mən Hidayət haqqında düşünəndə fikirləşdim ki, onu necə adlandırım? Şair Hidayət, nasir Hidayət, dramaturq Hidayət, publisist Hidayət, diplomat Hidayət, siyasətçi Hidayət, böyük vətəndaş Hidayət. Bütün dediklərimin doğruluğuna dərindən inanmaqla mən Hidayəti böyük ziyalı adlandırmağa daha çox üstünlük verdim.

Yüksək yaradıcılıq qabiliyyətinə, hərtərəfli dünyagörüşünə, intellektual və mədəni səviyyəsinə, ensiklopedik biliyinə, zəngin mənəvi və insani keyfiyyətlərinə görə fərqlənən Hidayət sözün əsl mənasında xalqımız, millətimiz, müstəqil dövlətimiz uğrunda alovlanıb yanan böyük ziyalıdır.

Hidayətin həyat və yaradıcılığı, ədəbi-bədii, publisistik və ictimai-siyasi fəaliyyəti ilə tanış olduqda inanmaq olmur ki, kiçik bir zaman kəsiyində adi bir insan bu qədər böyük iş görə bilər. Mədəniyyətimizin, ədəbiyyatımızın elə bir sahəsi yoxdur ki, Hidayətin orada izi olmasın. O hansı sahədən keçibsə, orada özünəməxsus iz qoyub. İz salmaq, iz qoyub getmək isə hər adama nəsib olmur. Bu iş ancaq yaradıcı şəxsiyyətlərin payına düşür. Şeirdə, nəsrdə, dramaturgiyada, publisistikada, teatrşünaslıqda, incəsənətdə böyük xidmətləri olan Hidayət həmçinin respublikamızda kitab nəşrinin təşkilatçısı, Azərbaycan kitab mədəniyyətinin görkəmli təbliğatçısı kimi ad-san sahibidir.

Qədim oğuz eli olan Qərbi Azərbaycanda – indiki Ermənistanda işləyərkən Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin inkişafında və təbliğində onun xidmətləri əvəzsizdir.

**Abuzər Xələfov,**
*professor*





Hidayət müəllim hansı işi aparmasından asılı olmayaraq, ona bütün canı, enerjisi ilə maksimum münasibət bəsləyir. İşinə sadiq olduğu kimi, həm də ona rəhbərlik etmiş Ümummilli Liderimiz Heydər Əliyevə çox sadiq olub. Ölkədə sabitlik bərqərar olandan sonra bir dəfə bu sahəyə məsul olduğuna görə mən ona öz dost təşəkkürümü bildirdim. O mənə cavab verdi ki, “yox, bu mənim deyil, məhz hörmətli Prezidentimiz Heydər Əliyevin xidmətidir. Sabitlik və respublikamızın bütün nailiyyətləri Heydər Əliyevin zəhmətinin bəhrəsidir. Onun bilmədiyi sahə yoxdur. O hansı kənddə, hansı rayonda kimin nə işlə məşğul olacağını belə qabaqcadan bilir.”

Hidayət müəllimin şeirləri arasında “Yol gedirəm” adlı bir şeiri var. Müəllif həmişə yol gedir. Vətənimizin, dövlətimizin, ədəbiyyatımızın, incəsənətimizin çiçəklənməsinə doğru yol gedir. Uğur olsun!

**Ağakişi Kazımov,**
*Xalq artisti, professor*

Altmışıncı illərdən Ermənistanda yenidən başlanan millətçilik hərəkatı, Azərbaycana qarşı irəli sürülən əsassız iddialar və düşmən mövqeyi bir çox başqa sahələrdə olduğu kimi, Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında başlanan böyük yaradıcılıq işlərinə də əngəllər törədirdi. Azərbaycan teatrının uğurları, onun getdikcə daha geniş tamaşaçı auditoriyasını əhatə etməsi təbii ki, ermənilərin ürəyindən deyildi. Teatrı dağıtmaq üçün əllərindən gələni əsirgəmirdilər.

Məhz belə bir vaxtda 24 yaşı tamam olmamış gənc Hidayət İrəvan teatrına direktor təyin olundu. Teatrın problemlərinin dərindən öyrənilməsi, truppanın formalaşdırılması, sanballı repertuar tərtib edilməsi üçün çox çalışdı və istəyinə çatdı. İrəvan Azərbaycan Teatrının tarixi nailiyyətlərini bərpa etdi, bu qocaman sənət ocağı o illərdə Azərbaycanın və Ermənistanın ən maraqlı teatrlarından birinə çevrildi.

Kollektivin fəaliyyətini məhdudlaşdırmaq istiqamətində görülən tədbirlərə etiraz səsini ucaldan, yüksək təşkilatçılıq

qabiliyyətinə malik direktor uzun illər teatrda səmərəli fəaliyyət göstərdi və nəhəng imperiyada təcrübəli teatr rəhbərlərindən biri kimi tanındı.

**Azad Nəbiyev,**
*AMEA-nın müxbir üzvü, professor*

Hidayət Orucov ulu öndərimiz, ümummilli liderimiz, fenomenal şəxsiyyət kimi tarixdə yaşayan Heydər Əliyev məktəbinin layiqli yetirməsidir. O, ulu öndərimizin və onun siyasi kursunun layiqli davamçısı, indiki Prezidentimiz İlham Əliyevin milli siyasətlə bağlı proqramlarının həyata keçirilməsində xüsusi bacarıq və qabiliyyətlə çalışır. Respublikamızda yaşayan milli azlıqların problemlərinin həllinə xüsusi səy göstərir. Bu, onun təkcə vəzifə borcu deyil, eyni zamanda, Heydər Əliyevin müəyyənləşdirdiyi azərbaycançılıq ideyasının həyata keçirilməsinə çalışan vətəndaşlıq qayəsidir.

**Bəhlul Ağayev,**
*professor*

Hidayət hansı mövzuda, hansı janrda, hansı üslubda yazırsa-yazsın elə Hidayət səmimiyyəti ilə seçilir, "Heydər Əliyev və Azərbaycanda milli siyasət" monoqrafiyasında nə qədər elmilik, obyektə yanaşma reallığı varsa, bir o qədər də Hidayət qəlbinin döyüntüsü var, Hidayət ağlının görücülüyü var.

Hidayət könlü-gözü tox, abır və ləyaqətini həmişə üstün tutan vətəndaş, dövlət adamı, sənətkardır. Ona verilmiş "Əməkdar incəsənət xadimi" fəxri adı, Gürcüstanın "Şərəf", Azərbaycan Respublikasının "Şöhrət" ordenləri ona verilmiş əsl qiymətdir.

**Əjdər Ağayev,**
*professor*

Bəziləri böyüdükcə mürəkkəbləşdiyi halda, Hidayət Orucov böyüdükcə sadələşmiş və sadələşdikcə də böyümüşdür.





O, Prezidentin, həm də dünya şöhrətli Heydər Əliyev kimi Prezidentin müşaviri olduğu dövrdə məni ilk dəfə yanına dəvət etdi. O, əvvəlki Hidayətlərdən də sadə idi. Məni otağın qapısı ağzında qarşıladıqdan, səmimi söhbətlərdən sonra sürücüsünü yanına dəvət etdi: "Mənim ağsaqqalımı evlərinə çatdır" - dedikdə nəzərimdə bir az da böyüdü.

Əksər şairlər elə ilk yaradıcılığa başladığı gündən özünə təxəllüs qəbul etdiyi halda, o, bu böyüklüyü də sadəliklə ifadə edir: onun yazılarının sonunda təkcə bir söz – Hidayət yazılır. Bu sadəlik həm onun özünü, həm də adını böyüdür.

**Həsən Balıyev,**
*professor*

Mən Hidayət müəllimi həssas qəlbli, lirik duyğulu, romantik təbiətli bir şair kimi tanımışam, müxtəlif illərdə nəşr olunmuş şeir kitablarında toplanmış zərif şeirlərini rəğbətlə oxumuşam, yeri gəldikcə onları poeziyasevərlərə təbliğ etmişəm. Şairin poetik yaradıcılığının məziyyətlərini insana məhəbbət, təbiətə sevgi, Vətənə sədaqət hissləri təşkil edir. Bu şeirlər oxucuların mənəvi-estetik ideallarının formalaşmasında mühüm rol oynayır.

Hidayət Orucov xalqına, vətəninə, el-obaya çox bağlı bir vətəndaşdır. Onun boy-buxunu, qədd-qaməti əsl Oğuz soylarının gözəl nümunəsidir. Hidayət müəllim həmişə xeyirdə-şərdə görünən, xalqın içərisində olan bir insandır. Hidayət müəllimlə hər bir insan həmsöhbət ola bilər, onun dinləmək qabiliyyəti, hər kəslə öz dilində danışmaq bacarığı vardır. Məhz onu sevdirən də elə bunlardır. Hidayət müəllim püxtələşmiş və çox yetkin dövlət xadimi, şair-publisist, sadə və gözəl insandır. Onun haqqında məmnuniyyətlə yazmağa dəyər.

**Xəlil İsmayılov,**
*professor*

Hidayətin şeirləri qaynağı xalq yaradıcılığından gələn xəlqilik, klassik ədəbiyyatdan nəşət edən fəlsəfi dərinliklə seçilir.

Hidayət yaşadıqlarını yazır, yazdıqlarını yaşayır və oxucusunu da daxili axtarışa təşviq edir.

Hidayət publisistikasında onun şairliyindən gələn incə lirizm dərin anlalitikliklə birləşir, hadisələrin insani dəyəri ilə ictimai əhəmiyyəti vəhdətdə aşkarlanır, tarixin fəlsəfəsi verilir. Yurd duyğusu, haqqın təntənəsinə inam leytmotivi bütün mətnlərə sirayət edir. Şəxsiyyətin müdrikliyi, fikirlərin siqləti, aram və təvazökarlıq – qeyd edək ki, bütün bunlar Hidayət müəllimin dövlət xadimi kimi fəaliyyətinə də xasdır – yazıçının hər bir əsərinə xüsusi məna aşılayır, milli taleyimiz haqqında sanballı tədqiqat keyfiyyəti verir.

Bütövlükdə, Hidayət müəllimin ziyalı, şair, dövlət xadimi kimi fəaliyyəti vətənə, millətə, dövlətə şərəfli xidmət, şəxsiyyətin bütövlüyü nümunəsidir. İnanırıq ki, onun şeirləri, nəsr əsərləri, bütün yaradıcılığı uzun illər sevilərək oxunacaq, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsinə, haqqın təntənəsinə xidmət edəcəkdir.

**Kamal Abdulla,**
*AMEA-nın müxbir üzvü, professor*

Azərbaycan Respublikasının milli məsələlər üzrə Dövlət müşaviri Hidayət Orucovun bir şair, dramaturq, nasir və publisist olduğunu yaxşı bilirdim. Lakin etiraf etməliyəm ki, belə istedadlı şair olduğunu təsəvvür etmirdim. Bu, sözsüz, mənim üçün bağışlanmaz haldır. Axı, bu, onun gürcü dilində buraxılmış ikinci kitabıdır.

Gürcü və Azərbaycan dillərində çıxmış kitablar qarşımdadır, tərcüməni orijinalla müqayisə edir və əmin oluram ki, Hidayət Orucovun şeirləri gürcü dilində heç də orijinaldan fərqlənmir.

**Məmməd Gülməmmədov,**
*professor*





Hidayətin əsərlərində bir əbədi obraz var, bu TORPAQdır. Torpaq təkcə onun poetik obrazı deyil, TORPAQ onun YAZI yeridir, o SÖZlərini torpağa yazır, yalnız yazmır, həkk edir, SÖZü torpağa sancır, sancır ki, SÖZ bu əbədi və əzəli torpaqda – yanıb qovrulmuş Qərbi Azərbaycan torpağında, Naxçıvan torpağında, Gəncə torpağında, Təbriz torpağında – bütöv Azərbaycan torpaqlarında bitsin, çiçək açıb bar versin! Əsir torpaq çiçək açıb bar verməz! – Hidayətin ən böyük şair yanğısı, vətəndaş ağrısı, şəxsiyyət narahatlığı məhz budur. Şair və vətəndaş Hidayətin bədii və publisistik yaradıcılığı, bütün varlığı – içi-içalatı, qəlbi və zəkası ƏSİR TORPAQ yeridir. O, əsir torpağın əsiridir. Ona görə də şairin əsərləri XXI əsrin Azərbaycan poeziyasına, fəlsəfi publisistikasına həsrət dolu misilsiz torpaq ətri gətirir – unutduğumuz torpaqların unudulmaz ətrini!

**Nizaməddin Şəmsizadə,**
*professor*

Hidayət yaradıcılığı milli kaloriti, çoxşaxəliliyi, təbiiliyi, axıcılığı ilə fərqlənir. Onun şeirlərinin öz taleyi, öz seçimi, öz yolu var. Vətənpərvərlik motivləri, təbiətə vurğunluq, lirizm Hidayət poeziyasının qayəsini təşkil edir. Şairin bir çox şeirlərində sinəsinə çalın-çarpaz dağlar çəkilmiş Anamız Azərbaycanın o taylı-bu taylı dərdi böyük ürək ağrısı ilə təsvir olunmuşdur.

*Araz, qırağında doğuldum...*
*Nədən,*
*Suyundan bir ovuc içə bilmirəm.*
*Neçə çaylar keçdim qürbət eldə mən,*
*Səni bircə kərə keçə bilmirəm.*

Çox az sənətkarlarımızın əsərlərində təcəssüm tapan Qərbi Azərbaycan niskili, bizim ikən bizim olmayan Zəngəzur yan-

ğısı müəllifin yaradıcılığında aparıcı qollardan birini təşkil edib, bugünkü günümüzlə həmahəng səslənir.

**Paşa Qəlbinur,**
*şair, professor*

"До завтра еше далеко" – ruscası belə adlanır. Moskvadamı nəşr olunub? Xeyr, xeyr, Mahaçqalada, lap dünənki 2003-cü ildə. Ona görə də tirajı çox deyil, vur-tut 500 nüsxə. İlk vərəqində yazılıb: "Азербайджанский язык". Yəni əvvəlcə şeirlərin əsli – azərbaycancası, sonra ruscası, bunun ardınca avarcası, dargincəsi, kumukcası, ləzgicəsi, lakcası, tabasarancası, noqaycası, tatcası, saxurcası, rutulcası, aqulcası. Məncə, görünməmiş təptəzə bir işdir. Dağıstanda xeyli fərqli ləhcələr də var. Amma respublika ərazisində ünsiyyət dili bu 13 dildir. Bir-birinin dilini bilən və anlayan adamlar da var, yaxın dillər qrupunu bilənlər də var; bir-birini anlaya bilməyənlər üçün rus dili ünsiyyət vasitəsidir. İndi bizim hörmətli və şöhrətli yazıçımız Hidayət müəllimin (Hidayət Xuduş oğlu Orucovun) şeirləri doğma dildə kitabın əvvəlində, tərcümələr isə ondan sonra sıralanmışdır.

İndi kafedramızın, eləcə də özümün Dağıstanla təlim-tədris əlaqələrimizin zəiflədiyi, hətta kəsildiyi bir vaxtda hörmətli Hidayət müəllimin əsərinin Mahaçqalada nəfis tərcümə nəşri məni sevindirdi.

**Pənah Xəlilov,**
*professor*

O, özünün publisistik yaradıcılığı ilə Azərbaycan həqiqətlərini, Qanlı Yanvar soyqırımını və onu törədən xəyanətkarların qeyri-insani, vəhşi əməllərini, tarixən qədim Azərbaycan torpaqları olan İrəvan bölgəsindən Zəngəzur, Göyçə, Hamamlı, Ağababa və başqa ulu yurdlardan azərbaycanlıların təcavüzkar erməni daşnakları tərəfindən dəfələrlə zorla qovulması, XX





əsrin sonlarında isə onların bütünlüklə deportasiyaya məruz qalmalarını dünyaya çatdırmışdır.

Ulu Dədə Qorqud nəslinin qeyrətli oğlu, böyük qələm sahibi, publisist Hidayət Nizamidən, baba Füzulidən, ənəlhəqq səsini ucaldan Nəsimidən, Şah İsmayıl Xətaidən, Dədə Ələsgərdən, Mirzə Ələkbər Sabirdən, Cəlil Məmmədquluzadədən və Azərbaycanın digər sənət korifeylərindən bəhrələnib, sözün ecazkar hikmətini, gücünü duymuş, böyük vətəndaş ürəyi ilə sevdiyi xalqımıza, onun gələcək nəsillərinə, zəngin dəyərlərə malik söz xəzinəsi – "Sözün vaxtı" kitabını ərmağan etmişdir.

**Vəli Əliyev,**
*AMEA-nın müxbir üzvü, professor*

Çaylar zirvələrdən baş alır, qayaların bağrından keçir, dəryalara qovuşur. Yollar isə, əksinə, düzlərdən başlanıb əlçatmaz, ünyetməz zirvələrə doğru üz tutur. Yazan, yaradan ilham və qələm sahibinin - şair dostumuz Hidayətin də ömür yolunu uca zirvələrə qalxan çəhlimə - cığıra bənzətmək olar. Şairin poeziyasında həm gerçək, həm də əfsanəvi bir dağ obrazı var - Ələngəz obrazı. Dünyanın hansı səmtinə yolu düşsə də, xəyal onu dolandırıb Ələngəzə qaytarır. Şair nə zamansa bu zirvəni fəth edəcək. Əlləri zümrüd quşunun qanadlarına çatacaq və bu qüdrətli qanadlar onu günəşə doğru yüksəldəcək. İnanırıq ki, Ələngəz yoxuşunda şair dostumun nəfəsi təngiməyəcək.

**Yaşar Qarayev,**
*AMEA-nın müxbir üzvü, professor*

Hidayət publisistikasının ana xəttini həqiqətə, sözlə işin birliyinə çağırış motivləri təşkil edir, obyektivlik, keçmişə də, indiyə də düzgün qiymət istəyi təşkil edir. Keçmişə münasibət ibrət üçün edilməlidir, pisi atmaq, yaxşıdan istifadə etmək məqsədi daşımalıdır. Axı, bu bizim öz tariximizdir, xalqımızın, ölkəmizin, hər birimizin tarixidir: indiki nəsil də bu tarixin yetirməsidir. Ona görə də keçmişin tənqidi ürək ağrısı ilə,

təəssüf hissi ilə edilməlidir, sevinə-sevinə yox, heyf ki, çox vaxt tərifdə hədd-hüdud qoyulmadığı kimi, tənqid də tam inkarçılıq səviyyəsinə enir, burada da hüdud gözlənilmir. Hidayət doğru deyir ki, "biz keçmişin kobud səhvlərindən, yeri oldu-olmadı, ehtirasla danışa-danışa, bəzən az qala bu günümüzün ciddi problemlərini unuduruq".

**Yusif Seyidov,**
*professor*

Mənim üçün Hidayət bəy bir şəxsiyyət kimi səmimi, mərd, sözünü açıq söyləməkdən çəkinməyən, verdiyi vədləri tamamilə və vaxtında yerinə yetirməyə çalışan, bu və ya digər hadisəyə özünəməxsus münasibəti olan, öz mövqeyini sonuna qədər müdafiə edən, bəzən də öz mövqeyindən həddindən artıq inadkarlıq göstərərək dönmək istəməyən, hər bir ciddi məsələyə vətəndaşlıq mövqeyindən yanaşan, ətrafındakı insanlar içərisində ciddiliyi ilə seçilən, çox nadir hallarda zarafat edən, şit və yersiz zarafatları isə heç zaman etməyən, hər cür zəhmətə qatlanan bir insandır.

Sadaladıqlarım keyfiyyətlərlə həmahəng olan, amma mənim hər bir ziyalıda ən qiymətli keyfiyyət hesab etdiyim bir xüsusi qabiliyyəti də var Hidayət bəy Orucovun. Bu da ondan ibarətdir ki, o istedad və işgüzarlığını başqaları kimi yalnız bir və ya iki sahədə göstərməklə kifayətlənmir. Yəni onun bədii, siyasi və ictimai fəaliyyəti intensiv, davamlı, arasıkəsilməz olduğu kimi, həm də çoxcəhətli və çoxşaxəlidir...

**Yunis Məmmədli,**
*Süleyman Dəmirəl Universitetinin professoru*

Qələm yoldaşım Hidayətin yazdığı əsərlərin, demək olar ki, hamısını oxumuşam. Mənə bir şey gün kimi aydındır ki, bu şeirlər, nəsr əsərləri, publisistik yazılar, yol qeydləri, xatirə və düşüncələr saf bir çeşmədən süzülüb gələn bulaq kimi dupdurudur və bu duruluq təkcə Hidayətin daxili aləmində deyil,





xarici görünüşündə, adamlara münasibətində, dostuna, sirdaşına sədaqətində də görünür. Dupduru, aydın mühakiməyə malik olan Hidayətin əsərlərində xalqına ürəkdən bağlanan, onun dərdlərini, sevincini özününkü bilən bir şəxsiyyətin ürəyi döyünür. Bir sözlə, Hidayət əsərlərində necədirsə, həyatda da o cürdür: sadə, təvazökar, təmkinli, sözə, məsləhətə qulaq asan, kövrək, dostluqda səmimi və möhkəm.

**Zahid Xəlil,**
*şair, professor*

Çinlilərin bu gün də zərb-məsəltək işlətdikləri müdrik kəlamları mən insan ömrünün tale yolunu nurlandıran həyat mənbəyi kimi qiymətləndirirəm. Və mən peşə həmkarım, dostum Hidayət barəsində düşünəndə onun səhnə sənətindəki dramaturgiyada, poeziyada qazandığı uğurların kökünü arayıb-axtaranda onun işələrində inam görürəm. Bu, Hidayətin sənətə inamıdır, gözəlliyə inamıdır, xalqına inamıdır. Bu inamla Hidayət həyatın ən amansız faciəsinin göz yaşlarına da inam gücü ilə işıq verə bilib.

Bu inamla Hidayət bəlkə də təkbaşına on altı il (1968-1984) İrəvanda ikinci dəfə doğulan Azərbaycan Dram Teatrını yaşatdı, ruzigarın fırtınalarına öz sinəsini gərib, bir parça Azərbaycanı, onun çırağı olan sənət ocağını ləyaqətlə qoruya bildi.

Bu inam qətrə-qətrə Hidayətin poetik təfəkkürünə hopdu. Hopdu, idrakdan nur içdi, ilhamdan qanad taxdı və misralara çevrilib, şeir-şeir ilmələndi, şair ömrünün söz xalçası toxundu.

Həyata və insanlara inam şamın həmişə nurlansın, Hidayət.

**İlham Rəhimli,**
*professor*

Mən Hidayəti çoxdan tanıyırdım, özü də etiraf edim ki, sözü, fəaliyyəti, qələmi ilə onun özündən əvvəl tanış olmuşam.

Eşitmişdim ki, indi Ermənistan adlanan türk torpaqlarında bir ziyalı yaşayır, bizim böyük maarifçilərimizin tarixi ənənələrini davam etdirərək, İrəvanda və ətraf bölgələrdə böyük işlər görür.

Şair və ziyalı Hidayət ağrı, acı görmüş adamdır. Yurd itkisini, övlad dərdini yaşamış şair dostumu mən müsibətinə də, özünü saçlarının qəflətən ağarmasında daha çox göstərən göynərtisinə də hörmətlə yanaşan, böyük təmkin və dözüm sahibi kimi gördüm. İnandım ki, daxili mədəniyyət, ləyaqət ən ağır məqamlarda, sınaqda belə insanın insanlığını qoruyub saxlamasına təminat verir. Hidayət insani sınaqların ən ağırlarının bir çoxundan çıxıbdır, həyatsa davam edir, çəkdiklərini bir daha çəkməsini təbii ki, istəmirəm, amma hər hansı sınaq zamanında həmişə ziyalılığı, daxili mədəniyyətini, ləyaqətini... qoruyub saxlayacağına tam əminəm.

Tanrının verdiyi ömrü hamı onun müəyyənləşdirdiyi vədədə başa vurur. Lakin heç də hər bir insan həyatının hansısa məqamında arxada qalan ömrə, illərə, görülmüş işlərə, dəyişdirilməsi mümkün olmayan əməllərə baxıb, Hidayət kimi özünəməxsus təvazökarlıqla deyə bilmir: bəli, mən yaşamışam...

**Anar,**
*Xalq yazıçısı*

Hidayət təzə kitabını "Qatardan məktub" adlandırıb.

Bu ad sözün həqiqi mənasındakı sərnişin qatarına yaxın olsa da, daha geniş məna kəsb edir: Zamanın, ömrün, taleyin öz qatarı. Kitabı vərəqlədikcə inanırsan ki, bu qatarın sürəti adi sürət, dayanacaqları adi dayanacaqlar deyildir. Bu qatarın hər addımını təzə imtahan, təzə sınaq gözləyir. Şair həyata da, sənətə də imtahan kimi baxır.

Hidayətin məhəbbət şeirləri oxunaqlı və düşündürücüdür. Şair öz oxucusuna səmimi, xeyirxah və nikbin sevgi duyğuları aşılayır. Bu şeirlərdəki sonsuz həsrətin özündə də mərdlik, dözümlülük, fəlsəfi məna var və nə yaxşı ki, lirik qəhramanın sevgisi sığallı sevgi deyil, keşməkeşlərdən keçən sevgidir.





Hidayətin təzə kitabında doğma kəndi Maralzəmi, Mığrı çayı, Zəngəzur dağları, doğma evi, oradakı dostlarıyla bağlı sətirlər də var. O yerlər, o illər şairin şəxsi tərcümeyi-halının böyük bir parçası olduğundan, onun poeziyasından kənarda qala bilməzdi.

Sən ey ömür qatarı, sənə yaxşı yol, ürəklərdən ürəklərə köçən nurlu-işıqlı bir yol diləyirəm.

**Nəbi Xəzri,**
*Xalq şairi*

Hidayət böyük sənətkarlara xas olan çoxşaxəli yaradıcılığı ilə ölkəmizin görkəmli ədəbi simalarından biri kimi, ictimai-siyasi xadimlərindən biri kimi tanınır və sevilir. Çünki o özü sevilir, safdır, xeyirxahdır.

Hidayət bu millətin bəxtinə doğulanlardandır.

Öz taleyi ağır olsa da, xalqının, başqa xalqların taleyində mühüm rolu olub. Və indi də var. Zaman onu tamam yeni ruhlu, yeni təfəkkür tərzinə malik, yeni tipli sənətkar kimi yetişdirdi. Böyük bir şəxsiyyətin yanında formalaşmışdır. Bu indi də davam edir. Buna görə Hidayət başqa həmkarlarından sözün geniş mənasında seçilir. Şeirləri, publisistikası, təcümələri, çıxışları, müsahibələri dediklərimi sübut edir.

Hidayətin şəxsinizdə Azərbaycan ədəbiyyatı – müstəqil Azərbaycan dövlətçiliyinə xidmət edir. Bu, onun taleyi və şərəfli tərcümeyi-halıdır.

**Nəriman Həsənzadə,**
*Xalq şairi*

Yaş fərqimiz çox olsa da, ədəbi-ictimai mühitdə tanışlığımızın, yaxınlığımızın tarixi qədim olmasa da, sevdiyim qələm yoldaşlarımdan biri də Hidayətdir.

Onun hələ, necə deyərlər, dünyanın düz vaxtında Ermənistandan (əslində tarixən elə öz torpaqlarımızdan) Azərbaycana

köçüb gəlməsi - bir insanın, konkret desək, bir qələm sahibinin təzə ömür, təzə həyat və yaradıcılıq səhifələrinin açılması deməkdir. Bəlkə də tale ayağının altına daş qoyub boylanaraq onun qulağına pıçıldamışdı ki: Ey dili qafil, köç Bakıya...

Hidayət təvazökar olduğu qədər də müdrik, təmkinlidir. Ona şəxsi həyatında və yaradıcılığında da, vəzifə pillələrində də İstanbula uçan və neçə-neçə səfərlərə uçacaq təyyarəmizin vüsəti kimi vüsət arzulayıram.

**Qabil,**
*Xalq şairi*

Bu əsər ("Bu dünyanın adamları" komediyası) yaxın keçmişimizə həsr olunub. Bu, həmin vaxt idi ki, balaca bir mənzil məsələsini min yerdə həll edirdilər. Elə gələ bilər ki, bu bir qədər gecikib, əslində isə gecikməyib. Çünki biz indi həmin adamlarla birgəyik. Əsər həmin adamları bizə bir daha göstərir. Mənə elə gəlir ki, tamaşaçılar sevdilər bu əsəri. Aktyorun oyununu da həmçinin. Aktyor oyunu burda xarakterlər üstündə qurulub və aktyorlar bunu çox gözəl yerinə yetirirlər. Hidayət özü teatrda, teatrın tərbiyəsi ilə böyümüş adamdır. Bir dramaturqdur, bir şairdir, duyğulu bir insandır. Bu onun Akademik Milli Dram Teatrında ilk işidir. Mənə elə gəlir ki, gələcəkdə də teatrımıza gözəl əsərlər təqdim edəcək.

**Mikayıl Mirzə,**
*Xalq artisti*

Bu sətirləri yaza-yaza masanın üstündə üst-üstə yığılmış iri-xırdalı yeddi kitabını gözdən keçirəndə çətin, məsuliyyətli bir işinə baxmayaraq, qələmi yerə qoymadığına, hər kitabında istedadının yeni bir çalarıyla görüşdüyümə sevinirəm.

Bu kitablar arasında Hidayətin yaradıcılıq həyatını işıqlandıran biblioqrafiya da var. Təkcə bu kitabı vərəqləmək kifayətdir ki, mürəkkəb, çətin bir ömür yolunda rastlaşdığı əngəllərə,





hətta yurd itkisi qədər faciəli itkiyə baxmayaraq, nə qədər səmərəli, ardıcıl bir ədəbi yol keçdiyini görə biləsən. Bu kitabda oxucular Hidayətin İrəvan Teatrındakı – mənim ötəri toxunduğum – 16 illik direktorluğundan əlavə, o vaxtlar Ermənistan Yazıçılar İttifaqının Azərbaycan Ədəbiyyatı Şurasına rəhbərlik etməsi, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsindəki müəllimliyi, orda Azərbaycan türkcəsində kitabların nəşri sahəsindəki uğurlu və səmərəli fəaliyyəti barədə də məlumat alırlar.

**Sabir Rüstəmxanlı,**
*Xalq şairi*

Biz – Hidayətin nəsli, şairlər, yazıçılar xoş üzlü Bakının doğma küçələrində kəkilimizi yan darayıb, qafiyələr quraşdıranda, Hidayət uydurma tarixləriylə üfürülüb şişmiş ermənilərlə milli mənlik qovğaları aparırdı, döyüşürdü, çarpışırdı və sözünü deyirdi. İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektiviylə Ermənistanın Azərbaycan türkləri yaşayan kəndlərini dolaşır, tamaşalar göstərir, çıxışlar edirdi.

Mən həmişə kəndə gedəndə hamı Hidayətdən sevinc içində danışardı ki, bizə gəlmişdi, çıxış etdi. Uzun müddət onun sözü-söhbəti kəsilməzdi...

Hidayət hələ cavanlığından təmkinliydi, ağırtaxtalığı, ağayanalığıyla yadda qalandı. Hər şeyə gendən baxmağı, dəqiq nəticəyə gəlməyi vardı. Bütün bu xüsusiyyətlərinə görə dolaşıq-bulaşıq, yalan və böhtanlarla dolu erməni mühitində baş çıxara bildi və onun İrəvandakı evi oralı-buralı bizim hamımızın mədəni mərkəzinə çevrildi...

Ona görə də Hidayət ən kiçik yazılarında belə dərin kökləri olan milli problemlərə toxunur. Bizi sağlam ruhla o yurdlara səsləyir.

**Mövlud Süleymanlı,**
*Xalq yazıçısı*

Hidayətin daxilindən və taleyindən qopan qeyri-adilik onun gözlərindən, alın qırışlarından boylanarkən şair onları şeir şəklinə salır, odlu poetik nəğmələrə çevirir, budur Hidayətlə digər şairlərin fərqi. Onun üçün də o, tale şairidir

Hidayətin özünəməxsus yaradıcılığındakı şeirlər və misralar gah dolu yumruq nidaları olur, gah həzin nəğmələr, gah ümid, gah ayrılıq nəğmələri... O, bəziləri kimi öz şəxsi mənafeyi üçün ora-bura dırmaşan, onu-bunu üzdən salan şair deyil. O, bəzən də həyatda deyə bilmədiklərini şeirlərlə deyir, poeziyanı bir səngər hesab edir. Mən də bəzən onun alovlu və həzin misralarını uzun qara kirpiklərindən asılan görmüşəm... Onda Azərbaycan ictimaiyyəti istedadlı balamız Xəzər Hidayət oğlunu son mənzilə yola salırdı. Hidayət ağlamırdı, ancaq iki ağır, dolu göz yaşı kirpiklərindən sallanaraq oğlunun çiyinlər üstündə gedən tabutu kimi yırğalanırdı. Hidayət poeziyasının tale misralarıydı.

**Söhrab Tahir (Azər-Azər),**
*Xalq şairi*

Hidayətin şeirlərində təbiətə, insanlara hədsiz məhəbbət var, onun müxtəlif ölkələri və xalqları, bu xalqların mənəvi sərvətlərini, ən böyük oğullarını tanımaq, öyrənmək ehtirası güclüdür. “Bir az gözləyin məni” kitabının bədii coğrafiyası, şeir xəritəsi geniş və zəngindir. Şair sanki öz oxucusunun əlindən tutub Zəngəzur, Ələngəz dağlarına aparır, Araz qırağını gəzdirir, Avropanın bütün zirvələrinə meydan oxuyan Elbrusu bizə yenidən göstərir. Lermontovun xatirəsini qoruyub yaşadan Məşuq dağını, Dəmirdağı bizim üçün yenidən kəşf edir. Hidayət dünyaya şair heyrəti, sənətkar məhəbbəti ilə baxdığı üçün bu yerləri bizə sevdirir, tanıdır. “Qışda gedin şimala” şeirində şairin təbiəti tanımaq, mənimsəmək uğrunda inadkarlığı, romantika gücü heyrət doğura bilir. “Təyyarə, qatar yolları bağlı olsa da nə qəm?! - Xizək minib şimala gedərəm”. Bu bədii mübaliğə lirik qəhrəmanın böyük həyat sevgisini aşkara çıxarır. “Deyirlər ki, Martınov da şair imiş!” misrası ilə başlanan şeirində Hidayət sözün əsl mənasında polemikaya girişir: “Ola bilməz! Büllur sənət duyğuları sənətkara güllə atan bir ürəyə dola bilməz!”. “Lermontovun duel yerində” şeiri böyük rus şairinin surəti təbiətinin qüdrəti, ilkinliyi, zənginliyi ilə həmahəng verilir.





...Hidayətin xalqlar dostluğundan, sülhdən, vətən və insan taleyindən, məhəbbətdən danışan bir sıra orijinal, qüvvətli şeirləri belə düşünməyə əsas verir ki, o, bu çətin vəzifəni yerinə yetirə bilən sənətkarlar sırasında öz yerini tuta bilər. Kitabının adı da bunu vəd edir: “Bir az gözləyin məni.”

**Xəlil Rza Ulutürk,**
*Xalq şairi*

Hidayət müəllimin “Burdan min atlı keçdi” kitabında Qərbi Azərbaycanın yetişdirdiyi görkəmli şəxsiyyətlərin bir neçəsi haqda geniş məlumat verilib. Mən qələm dostumun kitabında adı çəkilən, öz xalqına, millətinə, dilinə, dininə baş ucalığı gətirən insanların, Qəşəm Aslanovdan və İsmixan Məmmədovdan başqa (Allah hər ikisinə rəhmət eləsin), heç birini görməmişəm, tanımıram. Hidayət müəllimin kitablarını oxuyandan sonra onlardan hər birini tanıdım, sevdim. Elə bil onların hər biri ilə dəfələrlə ünsiyyətdə olub, unudulmuş anlar yaşamışam. Müəllif bu şəxsiyyətləri oxuculara elə böyük məhəbbətlə təqdim edir ki, istər-istəməz qürur hissi keçirirsən ki, xalqımızın belə kişiləri olub və yenə olacaq.

Müəllifin özünün xalqı qarşısında ən böyük xidməti ondan ibarətdir ki, qələminin, istedadının, zəhmətinin, qəm və torpaq həsrəti üstündə köklənən poeziyasının gücü hesabına unudulmaq təhlükəsi qarşısında qalan çox adları, ünvanları, bir çox maraqlı hadisələri itməyə-batmağa qoymadı. Bu yaradıcılıq yolu böyük vətəndaşlıq və qeyrət işi deməkdir. Bir anlığa təsəvvürünüzə gətirin ki, bu kitablar yazılmayıb. Onda görün biz kimləri və nələri itirərdik. Hidayət müəllim təkbaşına bir elmi araşdırma ocağının işini görüb. Ziyalı üçün bundan böyük nə xidmət ola bilər?..

Hidayət müəllimdən söhbət düşəndə bir cəhəti xüsusi qeyd etmək lazımdı, onun Gürcüstanla, Borçalı mahalı ilə çoxsahəli əlaqələri ürəkaçan bir fəaliyyətə çevrilmişdir. İstər daşıdığı vəzifə ilə bağlı dövlət səviyyəsində gördüyü işlər, istər şəxsi arzuları ilə bağlı, yaradıcılıq əlaqələri ona Gürcüstan azərbaycanlıları arasında çoxlu sayda ləyaqətli dostlar qazandırıb. O dostların cərgəsində qəlbən, ruhən, tale oxşarlığı baxımından Hidayət müəllimə yaxın olan dostlardan biri Zəlimxan Yaqubdur. Bu sətirlərin müəllifi Hidayəti həmişə sevib, Zəngəzuru, Göyçəni, Maralzəmini, bütövlükdə Qərbi Azərbaycanı, Borçalını, Azərbaycanı sevdiyi kimi.

**Zəlimxan Yaqub,**
*Xalq şairi*

Hidayət indi Ermənistan adlanan qədim Azərbaycan torpağında yaşayıb-yaradan qələm dostlarımızdan biri kimi o torpağın təbii gözəlliyindən, sıldırım qayalarla, zəhmli dağlarla üzüzə, göz-gözə ömür sürən fədakar əmək adamlarından, nəhayət, mənəvi sərvətlərdən məhəbbətlə danışır. Şairin ilhamı ata yurdu, "köçmüş dağ kəndinin nəğməsi" üstündə, "arxasında məğrur duran qayalar, bulaqlar" üstündə köklənib. "Qızımla ata-baba ocağında" və "Zəngəzur" silsiləsindən bəzi nümunələr bu cəhətdən diqqəti cəlb edir.

**İsa İsmayılzadə,**
*şair*

Hidayətin əsərləri çap edilir, oxucu qapısını açır, təbliğatsız da yayılır. Onun şeirləri aktyor ifasında, musiqi bəzəyi ilə efirlərdən, ekranlardan gözə soxulmur.

Hidayət sadə və səmimi poetik dünyası olan, dədə-baba ədəb-ərkanına hörmət bəsləyən, böyük-kiçik tanıyan, xalqımızın taleyinə, Vətənin başına gələn bəlalara biganə qalmayan, klassik sənət yolumuza bağlı bir şairimizdir.

**İlyas Tapdıq,**
*şair*





...Məmur Hidayət Orucov və şair Hidayət dostcasına sabaha doğru yanaşı addımlamaqdadırlar.

Şükürlər olsun ki, məmur Hidayət Orucovun indiyəcən şair Hidayəti utandıracaq, ona kölgə salacaq heç bir qəbahəti olmayıb.

Bundan sonra da olmaz, inşallah!

**Məmməd Aslan**
*şair*

Yenicə çapdan çıxmış "Qiyamətə qalmayan qisas" adlı publisistik kitabımı Hidayət müəllimə təqdim etmək qərarına gələndə titula bir-iki kəlmə xoş söz yazmaq keçdi qəlbimdən. Tez qələmi əlimə aldımsa da Hidayət müəllim haqda onu bütövlükdə xarakterizə edə biləcək yığcam və dəqiq fikir söyləmək məsuliyyəti məni bir qədər düşünməyə vadar etdi. Xəyalım çox-çox illər qabağa getdi. İmzasını hələ 60-cı illərdə "Sovet Ermənistanı" qəzetinin səhifələrindən, "Ədəbi Ermənistan" almanaxından tanıyırdım. Şəxsi tanışlığımız isə 1980-ci illərdə Bakıda oldu. Uzun illər eyni nazirlikdə işlədik. Birlikdə bir neçə dəfə xarici ölkədə rəsmi səfərdə olduq. Son iki ildə isə bir şeir kitabının və onun rəhbərliyi ilə hazırlanmış bir neçə siyasi publisistik kitabın redaktoru olmuşam. "Sözün vaxtı" kitabını isə yenicə oxuyub bitirmişəm. Aramızda səmimi qardaşlıq münasibətləri yaranıb. Belə ki, Hidayət müəllimin şəxsiyyəti və yaradıcılığı haqda mülahizə yürütməyə kifayət qədər mənəvi əsasım var.

Hidayət müəllimin parlaq siması gözlərimin önündən bir an içində bax beləcə gəlib keçdi. Ürəyimdə deyə bilmədiyim hələ neçə-neçə fikirlər qaldı. Bu, mənim gələcək üçün çiynimdə qalan borc yüküdür. Sağlıq olsun!

Hidayət müəllimə bağışlamaq istədiyim kitabın tituluna aşağıdakı sözləri ərklə, ürəkdən yazdım:

Millətimiz üçün böyük Nəriman Nərimanovun qeyrətli mənəvi xələfi, şəxsən mənim üçünsə ləyaqət abidəsi olan bö-

yük qardaşım Hidayət müəllimə yeni kitab sevincləri və yurd-yuva yanğısı ilə...

**Səfalı Nəzərli,**
*naşir-publisit*

Vaxtılə İrəvanda yaşayarkən İrəvan Azərbaycan Teatrına uzun müddət rəhbərlik etmiş şair-dramaturq Hidayət yenə də bu kollektiv üçün ən doğma insanlardan və müəlliflərdən biri sayılır. Elə ona görə teatrın yaradıcı kollektivi böyük həvəs və məhəbbətlə onun əsərlərinə səhnə həyatı verməkdən məmnunluq duyur. Kolektiv Hidayətin “Durnalar qayıdanda” adlı ikihissəli dramını da böyük ustalıq və peşəkarlıqa hazırlayaraq öz tamaşaçılarına təqdim etdi. İstər tamaşanın premyerasında, istərsə də sonralı baxışlarda tamaşa salonu həmişə dolu olurdu. Tamaşaçılar bu əsərə gah Akademik Milli Dram Teatrının, gah da Musiqili Komediya Teatrının səhnələrində baxmaq məcburiyyətində idilər. Qaçqınlıq həyatının ağır dönəmlərini yaşayan teatrın yaradıcı kollektivi bu qeyri-adi şəaraitin müqabilidə bir daha öz varlığını, amalını, gücünü və sənət eşqini təsdiq etdi.

**Flora Xəlilzadə,**
*Əməkdar jurnalist*

Vəzifə, mənsəb bəzən insanları dəyişdirir. Xoşbəxtlikdən, bunu Hidayətə şamil etmək mümkün deyil. Kitabdakı müsahibələrinin birində o belə deyir: “Mən həmişə harada, hansı işdə olmuşamsa, xalqıma bir vətəndaş kimi xidmət etmişəm.”

Vətəndaş anlayışı şair, nasir, dramaturq anlayışından üstündür. Əgər vətəndaş eyni zamanda həm şair, həm də nasir və dramaturqdursa, o, ikiqat vətəndaşdır və deməli, ikiqat ədibdir. Eynən Hidayət kimi.

**Ramiz Əsgər,**
*professor, publisist*





Xalqlarımızın layiqli və görkəmli oğullarının şəxsi dostluqları hamıya məlumdur. M.F.Axundov və Akaki Seretelinin dostluq münasibətlərini qeyd etmək yerinə düşərdi. Bu ənənə xalqlarımızın ən ağır dövrlərində də davam etdirilmişdir. Səməd Vurğunla Georgi Leonidze, Hidayət Orucovla Quram Pancikidze bu gözəl ənənənin parlaq davamçılarıdır.

**Eduard Şevardnadze,**
*Gürcüstanın sabiq Prezidenti*

Sözsüz ki, “Sənsiz” kitabının təqdimat mərasimindən sonra Hidayət müəllim Gürcüstana gələndə ona bu tədbir barədə danışacağam, kitabla bağlı daha geniş tədbir keçirəcəyik. Yəqin Azərbaycan televiziyası da ona bu barədə məlumat verəcəkdir. Bizlərdə deyərlər ki, Allah üçdən deyib: Hidayət müəllimin gürcü dilində artıq iki kitabı çıxıb, üçüncü də hökmən çıxmalıdır.

**Aleksey Gerasimov,**
*Gürcüstan Prezidentinin milli məsələlər üzrə sabiq köməkçisi, professor*

Mənə göndərdiyin “Cansuğ Çarkvianiyə məktub”u oxudum. Çoxdandır buna bənzər heç nə oxumamışdım. Təkəbbür məndən çox uzaqdır, buna görə də mən çox əziz olan və sədaqətlə yazılmış həmin dost kəlməsini iki qardaş xalqın sevgisi səviyyəsində anladım. Əsas deyilənlərdir, əsas şairin qəlbindən çağlayıb gələnlərdir, qaldı o ölməz sətirlərin kimə ünvanlanması məsələsi, bunun oxucu üçün heç bir əhəmiyyəti yoxdur. Bəli, başlıcası minnətdarlıq hissi ilə yoğrulmuş məhəbbət, heyranlıq və milli ruhdur, o milli ruh ki, sənin hər abzasının önündə milli bayraq kimi gəlir. Amma bir məndən soruşsunlar, bu milli məktubun başlığında öz əksini tapan həmin ithaf mənim üçün başlıca məsələ idi ya yox? Sevindimmi? Sevindim, o söz deyil, mən öz həyatımda belə hörmət, belə izzət çox nadir hallarda görmüşəm.

Məktubu oxuyanda əvvəl özümü itirdim, görəsən, bu imzanın sahibi başqa bir ölkənin övladıdır, yoxsa mənimlə yan-yana

yaşayan Gürcüstana canıyananlıq edən, vətənimin qayğısını çəkən bir şəxsiyyətdir.

...Təkcə öz adımdan deyil, bütün gürcü xalqının adından sənə dərin təşəkkür edirəm. Mənə ünvanlanmış o məktub bütün Gürcüstana məxsusdur. Məni düzgün başa düş, ucadan deməliyəm ki, əgər Allah-Taala yaradandırsa, həm də uca Tanrı bu heyrət doğuran sözü və qabiliyyəti insana – yazıçıya bəxş etmişdirsə, sən həqiqətən də fələyin verdiyi "yaradıcı" sözünü doğruldursan. Böyük siyasət ictimai rəydən ayrı ola bilməz, ictimai rəyi isə yazıçı - Tanrının yer üzünə göndərdiyi yaradan yaradır, formalaşdırır.

**Cansuğ Çarkviani,**
*şair (Gürcüstan)*

Hidayətə sonsuz sevgimdən danışa bilmirəm, çünki əsl sevgi şərh olunmur. Onu da ayırd edə bilmirəm ki, Hidayətin poeziyasını çox sevirəm, yoxsa özünü? Mənə elə gəlir - Hidayətin poeziyası elə onun özüdür.

**Quram Pancikidze,**
*Gürcüstan Yazıçılar İttifaqının sabiq sədri*

Hidayətin "Sənsiz" kitabının tərtibçisi Leyla xanım Eradze mənə bu şeirləri tərcümə etməyi xahiş edəndə, ondan əvvəlcə məni orijinalla tanış etməyi xahiş etdim. Çünki nə danaq, əvvəllər biz bir-birimizin əsərlərini əsasən şeirin yox, nəyinsə xatirinə çevirmişik. Mən o cür tərcümədən daim boyun qaçırardım. Bu dəfə isə orijinalı oxudum, qəlbən bəyəndim və tərcüməyə də girişdim.

Hər şeydən başlıcası - orijinaldır. Hidayətin poeziyası dərindir, düşündürücüdür, mənalıdır.

**Mziya Xetaqur,**
*şair (Gürcüstan)*





Hidayət öz xalqının, türk dünyasının böyük vətənpərvəridir, gözəl şairidir. O, bizi dəstəkləyir, bizə yardım edir.

**Mişşi Yuxma,**
*Xalq şairi (Çuvaşıstan)*

Hidayətin poeziyasıyla da, onun özüylə də hər görüş mənim qəlbimin milli bayramıdır.

**Rəsul Həmzətov,**
*Xalq şairi (Dağıstan)*

Azərbaycan, bəlkə də türk dünyasının ən çox şair yetişdirən bir bölgəsidir. Bu diyar Nizami, Füzuli, Nəsimi, Xətai kimi şah əsərlərini yetişdirib, türk ədəbiyyat aləminə bəxş etdiyi üçün nə qədər öyünsə, yenə azdır. Adını andığımız və anmadığımız şairlərimizin büllur bulağından su içən yüzlərlə, minlərlə şairimiz yetişmişdir. Onlardan biri də Hidayət Orucovdur. Mən onunla hələ Sovetlər Birliyi dağılmazdan öncə 1988-ci ildə Azərbaycana getdiyim zaman tanış olmuşam. Son dərəcə kübar, zərif qəlbli və alicənab bir insan olan Hidayət bəyə elə ilk tanışlıqdan isnişdim və aramızda əbədi bir dostluq başladı. Aradan keçən illər bu dostluğu daha da möhkəmlətdi.

Şeirlərindən bir çələng hazırlayıb təqdim etdiyimiz "Ata qəbri" adlı kitabda sizləri Hidayət bəyin iç dünyası ilə az da olsa, tanış edə biləcəyimi zənn edirəm. Orada Vətənindən, xatirələrlə dolu ata-baba yurdundan uzaq düşmüş bir ürəyin hayqırtılarını görəcəksiniz. Hidayət bəyin zəngin poetik dünyasını Türkiyə oxucularına çatdıra biləcəyimdən özümü bəxtiyar sayıram.

**Seyfəddin Altaylı,**
*publisist (Türkiyə)*

Hidayət müəllimlə mənim tanışlığım 10 ilə yaxındır. Bu illər ərzində hər dəfə mən Hidayət müəllimlə görüşəndə onun Azərbaycan xalqı üçün dəyərli mədəniyyət xadimi və millətsevər olduğunun şahidi olmuşam.

Hidayət müəllim böyük şair, publisist və dramaturqdur və mən böyük qürur duyuram ki, onun əsərləri ilə yaxından tanış olmuşam. Onu da qeyd etmək istərdim ki, Hidayət müəllimin əsərlərini Almaniyada maraqla oxuyurlar və sevirlər. Əsərləri təkcə Şimali Azərbaycanda deyil, Cənubi Azərbaycanda da, Təbrizdə, Ərdəbildə də sevilərək oxunur.

Mən hər dəfə Bakıya gələndə və Hidayət müəllimlə görüşüb söhbət etdikdən sonra Azərbaycana olan məhəbbətim daha da artır. Mən, vətənini ürəkdən sevən mədəniyyət xadiminə, Hidayət müəllimə səmimi qəlbdən cansağlığı, uzun ömür, Azərbaycan xalqına xidmətində yeni uğurlar arzulayıram.

**Rza Talebi-Dəryani,**
*Köln Tətbiqi Elmlər Universitetinin professoru (Almaniya)*





# ƏSƏRLƏRİ

## 1970

**1. Məni səsləyəndə** [Mətn]: şeirlər və poema /Hidayət; red. İ.S.Məmmədov.- İrəvan: Ermənistan, 1970.- 43 s.

*Kitabın içindəkilər:* Daim yaşayacaq bircə şeirim var; Lal Neva; İmtahan - həyat; Cəsarət; Qiymət; Qoca; Dilxor qaya, lal şəlalə; Ata; Ürək; Sənsiz bu dünyaya ayaq açmışam; O, məni səsləyəndə; Qara pencək; Məni bağışla; Əsər vurhavurla payız yelləri; Söyüd; Mənim məhəbbətim; Deyirlər, gizlətmə məhəbbətini; Hicran; A qardaş, de, bahar kimə gərəkdir?; Ata qəbri; Zəngəzur; Gəlin, dostlar; Mən kiməm?.

## 1973

**2. Məhəbbət qocalmır** [Mətn]: şeirlər və poema /Hidayət; red. İ.Məmmədov.- İrəvan: Ermənistan, 1973.- 126 s.

*Kitabın içindəkilər:* **Ələsgər dərsi:** Azərbaycan şeiri; Ələsgər dərsi; Ürək yumruq boydamı?!; Mən belə yaşayıram; Baba töhfəsi; Üç elin dərdi; Ani düşüncə; Cəsarət; Həkimlə söhbət; Kifayətin monoloqu; Çepovani; Elegiya; Dayanacaq; Deyirlər, iti dili; İlk qədəmin mübarək!; Sənin ömrün; Qiymət; "Şairəm" demə; Robert Fişerə açıq məktub; Mənim dostlarım; Qoca; Alatoranda. **Ata-baba ocağında:** Ötən gündən çox yazıram, eləmi?; Atasızlar; Anam qocalır; Hamı bu dağları piyada gəzər; Meğri; "Qızımla ata-baba ocağında" dəftərindən: 1.Babalar; 2.Maralzəmi; Payızla qış arasında. **İllər – düşüncələr:** Məndən sonra; İllər calaşdıqca, ömür ötdükcə; Dağlar və mən; Təzə il düşüncələri; Xoş gəlmisən, şaxta baba, xoş gəlmisən təzə ilim; Bakı -Yeni il; Yalanların ad günü; Mənim düşüncələrim göylərdən dərin. **Məhəbbət qocalmır:** İmtahana qayıdaq; Məhəbbət; Qayıdacaqsan; Ömür necə ötür, gün necə

keçir?; Hicran günlərində kədərlənmə, gəl; Axı, mən nə deyim sənin adına?; Qoy lap aləm eşitsin; Sən fərəh yığnağı, nəğmə qaynağı; Qızlar; Uzaqlı-yaxınlı haraya getsən; Acıqlı dinmərəm ömrümdə sənə; Xəyalla dolandım, xəyalla gəzdim; Ömrümdə deməırəm yoruluram mən; İlk eşqin son nəğməsi; Alagöz, bəstəboy bir sadə qızsan; Aldərə axşamları; Məni bağışla; Qayıtdı (poema).

## 1977

**3. Bir az gözləyin məni** [Mətn]: şeirlər və poemalar /Hidayət; ön söz B.Vahabzadə; red. Ə.İrəvanlı.- İrəvan: Sovet Yazıçısı, 1977. - 180 s.: 1 v. şək.

